ƏBƏDİLƏŞƏN GÖRÜŞLƏR

BAKI-2008

Kitab ulu öndər, dahi şəxsiyyət
HEYDƏR ƏLİYEVİN
anadan olmasının 85-ci, hakimiyyətə yenidən «QAYIDIŞ»ının 15-ci ildönümünə həsr olunur

Məsləhətçi:
Taleh Qaraşov
Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı

Kitabın tərtibçisi:
Anar Ağalarzadə
Azərbaycan Milli Elmlər Akademiyasının elmi işçisi

Buraxılışa məsul:
Arif Rəhimzadə
Milli Məclisin Regional Məsələlər Daimi Komissiyasının sədri, millət vəkili

Kitabda, Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətləri olan görkəmli dövlət xadimi Heydər Əliyevin 1979-cu ildə və cənab Prezident İlham Əliyevin 2007-ci ildə Neftçala rayonuna səfərləri əks etdirilib. Səfər çərçivəsində rayonun zəhmətsevər insanları ilə görüşlər keçirmiş hər iki lider onların qəlbində daimiyaşar iz qoymuşlar.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Kitabın ərsəyə gəlməsində maddi yardım göstərən «Azər-YOD» MMC-nin rəhbərliyinə təşəkkürümüzü bildiririk.

© Təknur

"... mən Neftçalanın gənc bir rayon kimi gələcək inkişafına inanıram".

HEYDƏR ƏLİYEV

ÖN SÖZ

Zəngin keçmişi, barlı-bəhrəli torpaqları, mehriban, zəhmətkeş insanları ilə tanınan Neftçala rayonunun həyatında unudulmaz, yaddaqalan hadisələr, təntənəli görüşlər, bayramlar çox olub. Ancaq bu təntənələrin ən əlamətdarı, insanların qəlbində əbədiləşəni Ümumilli liderimiz Heydər Əliyevin Neftçala rayonuna səfəri ilə bağlıdır.

Heydər Əliyevin misilsiz xidmətləri yaxşı məlumdur. O, Azərbaycan xalqına dirçəliş, sosial-iqtisadi inkişafla bərabər həmvətənləri üçün ölməz, daimiyaşar bir siyasi kurs, zəngin irs qoyub getmişdir. Milli liderimizin böyüklüyü bir də ondan ibarətdir ki, şərəfli həyatı dövründəki fəaliyyəti ölkənin və xalqın yalnız ümumən bütövlükdə inkişafı, rifah halının yaxşılaşdırılması ilə məhdudlaşmırdı. Ulu öndər eyni zamanda hər bir şəhərin, rayonun, kəndin və hər bir fərdin layiqli həyat tərzinin təmin edilməsi istiqamətində böyük işlər görürdü.

Neftçalanın 1973-cü ildə Salyan rayonunun tərkibindən ayrılıb müstəqil bir rayon statusu alması məhz Heydər Əliyevin xidmətidir. Müstəqil rayona çevrildikdən sonra Neftçala az bir müddətdə respublikamızın ən qabaqcıl rayonlarından birinə çevrilmişdir. 1982-ci ildə 1973-cü illə müqayisədə rayonda taxıl istehsalı 14 min tondan 39,3 min tona, pambıq istehsalı 15,5 min tondan 39,1 min tona, süd istehsalı 3 min tondan 6,4 min tona, ət istehsalı 608 tondan 2,6 min tona çatdırılmış, təsər-

rüfatın digər sahələrində də yüksək göstəricilər qazanılmışdır. Yüzlərlə rayon sakini özünə ev tikdirmiş, minik maşını almış, yaşayış şəraitini yaxşılaşdırmış, mükafatlara, təltiflərə, yüksək fəxri adlara layiq görülmüşlər.

Təəssüflər olsun ki, Heydər Əliyevin qurub-yaratdığı Azərbaycan, onun bir parçası olan Neftçala rayonu da Heydər Əliyev hakimiyyətdə olmadığı illərdə özünün ən ağır, böhranlı günlərini yaşamışdır. O illərdə Neftçalanın iqtisadiyyatı, sənayesi, təsərrüfatı ilə bərabər, həm də insanlarının mənəviyyatına ağır zərbələr vurulmuşdur. Hərc-mərclik, özbaşınalıq, rəhbərlikdə savadsızlıq, acizlik, qətiyyətsizlik rayonu iflic vəziyyətinə salsa da Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlməsi neftçalalıların da sönməkdə olan ümidlərinə ruh, hərarət və mübarizə əzmi gətirdi. Ulu öndərə olan sonsuz inam və ehtiram tez bir zamanda rayonda vəziyyəti, abı-havanı dəyişdirdi, insanların torpaq, vətən eşqini alovlandırdı.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndərimizin siyasi kursuna sədaqətini, ölməz rəhbərin bəşəri ideyalarına məhəbbətini sözdə deyil, əməldə, fəaliyyətdə həyata keçirir. Respublikamızın beynəlxalq aləmdə nüfuzunun artırılması, demokratiyanın inkişaf etdirilməsi, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, ən başlıcası Azərbaycan xalqının mənafeyinin müdafiə olunması sahəsində cənab İlham Əliyevin uğurlu fəaliyyəti nəinki xalqımız tərəfindən, dünya ictimaiyyəti və siyasi xadimləri tərəfindən də yüksək qiymətləndirilir. Burada da ümumxalq problemləri ilə yanaşı ünvanlı, hər bir bölgəyə, kəndə və fərdə istiqamətləndirilmiş fəaliyyət həyata keçirilir.

Neftçala rayonunun bugünkü durumu, inkişafı, insanların əhval-ruhiyyəsi, ərazidə aparılan tikinti-abadlıq, quruculuq işləri bu fikirləri söyləməyə bir daha əsas verir. Cənab İlham

Əliyev tərəfindən irəli sürülən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bütün xalqımız kimi neftçalalılar tərəfindən də dəstəklənir və əməli işlə müdafiə olunur. Prezidentin Neftçala rayonuna səfərləri, əhali ilə görüşləri, söhbətləri Heydər Əliyev iş üslubunun dəyərli nümunəsi kimi qiymətləndirilməklə bərabər, həm də ölkə rəhbəri ilə xalqın birliyinin əyani ifadəsinə çevrilir. Bu qarşılıqlı münasibətlərin nəticəsidir ki, Neftçala rayonu da öz mədəni simasını tamamilə dəyişmiş, ərazidə geniş quruculuq-abadlıq işləri aparılmışdır.

Son dörd ildə rayonda 6349 yeni iş yeri açılmış, onlarla yeni müəssisə yaradılmış, məktəblər, ictimai-iaşə, ticarət obyektləri fəaliyyətə başlamışdır. Yeni yollar salınmış, binalar tikilmişdir. Yalnız 2007-ci ildə rayonda 18 yeni müəssisə işə salınmış, «Azər-Yod» MMC-nin fəaliyyəti bərpa edilmişdir. Ələt-Astara yolunun çəkilişinə başlanılmış, əhalinin içməli və təsərrüfat suyuna olan tələbatını yaxşılaşdırmaq sahəsində böyük işlər aparılır.

Rayon üzrə ümumdaxili məhsulun həcmi 2007-ci ildə əvvəlki ilə nisbətən 39,3 faiz, son 4 ildə isə 2,3 dəfə artmışdır. Ümumi məhsul istehsalı pulla ifadədə 79,9 milyon manat təşkil etmişdir ki, bu da müvafiq dövrlə müqayisədə 22,5 milyon manat çoxdur. Ən başlıcası, insanların dövlətçiliyə, dövlətə, rəhbərə, ləyaqətli gələyəcə inamı artmışdır.

«Əbədiləşən görüşlər» kitabı ümumilli liderimiş Heydər Əliyevin bəşəri ideyalarına, böyük şəxsiyyətinə, unudulmaz xatirəsinə olan sonsuz məhəbbətdən və Azərbaycan Prezidenti cənab İlham Əliyevin əməli fəaliyyətinə verilən qiymətdən, ona bəslənilən inam və məhəbbətdən yaranmışdır.

Kitabda toplanmış xatirələr, ayrı-ayrı görüşlərdən fraqmentlər, faktlar canlı və səmimi olmaqla bərabər, həm də iki böyük insanın – Heydər və İlham Əliyevlərin baxışlarını,

insanlara qayğıkeş münasibətlərini, Vətənin, xalqın mənafeyi uğrunda mübarizə əzmlərini qurmaq, yaratmaq, Azərbaycanı, onun vətəndaşlarının, xalqın adət-ənənəsini, tarixini, dilini, mədəniyyətini, mənəviyyatını ucaltmaq eşqini özündə birləşdirir.

Kitab Ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 85-ci, hakimiyyətə qayıdışının 15-ci ildönümünə həsr olunmuşdur. Kitabın səhifələrindəki fikirlərin, faktların, göstəricilərin əksəriyyəti Neftçala rayonunun tarixini, inkişafını əks etdirməsinə baxmayaraq, bu nümunələr Azərbaycanın hər bir bölgəsində istər dünən, istərsə də bu gün gedən inqilabi dəyişikliklərlə tanış olmaq baxımından dəyərlirdir, qiymətlidir.

Çünki bu kitabda yalnız neftçalalıların deyil, bütün azərbaycanlıların, Heydər Əliyevi tanıyan, sevən, cənab İlham Əliyevin əməlləri, arzuları, gördüyü işlərlə tanış olan hər bir kəsin nəcib fikrinin, səmimi hissinin, saf arzusunun ifadəsi duyulur.

Arif Rəhimzadə
Milli Məclisin Regional Məsələlər
Daimi Komissiyasının sədri,
millət vəkili

TARİXİN YADDAQALAN SƏHİFƏLƏRİ

Hörmətli oxucu! Qarşınızdakı bu kitabda müstəqil Azərbaycan dövlətinin qurucusu, dünyaşöhrətli siyasətçi, tanınmış dövlət xadimi Heydər Əliyev və onun ən layiqli siyasi varisi, bu gün müstəqil, çiçəklənən və inkişaf edən doğma Azərbaycanın dünyaya sürətlə inteqrasiya etməsində böyük əməyi olan Prezident İlham Əliyevin xalqımıza xidmətlərinin bir göstəricisi əks olunub. Hər iki lider respublikamızın regionlarına xüsusi diqqət yetirmiş və bu diqqətdən irəli gələn məsələlər uğurla nəticələnmişdir. İlk olaraq ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin dövlətimizə göstərdiyi xidmətlərin tarixinə qısaca nəzər salaq. Xatırladım ki, dövlətin ümumi inkişaf tendensiyasının başlıca amili kimi iqtisadiyyatın aparıcı sahə olması ilə əlaqədar, yalnız bu sahənin respublikamızdakı uğurlarına toxunmağa çalışacağıq.

1969-cu ilin iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilmiş Heydər Əliyevin həyat yolu XX əsrin ikinci yarısında Azərbaycanın keçdiyi tərəqqi yolunun səhifələri ilə qoşa vərəqlənir. Azərbaycana 14 il rəhbərlik etdikdən sonra da, 80-ci illərdə keçmiş SSRİ dövlətinin rəhbərlərindən biri kimi fəaliyyəti dövründə də, ədalətsiz təqiblərə məruz qaldığı illərdə də, «olum ya ölüm» təhlükəsi qarşısında qalmış Azərbaycanı 1993-cü il fəlakətindən qurtaranda da, Heydər Əliyev yalnız Vətənə, xalqa, torpağa hədsiz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamışdır. Onun hakimiyyətə gəlişi Azərbaycanda dövlət, təsərrüfat idarəçiliyinə yeni nəfəs, yeni iş metodu, ciddiyyət gətirdi. Ulu öndər Azərbaycan iqtisadiyyatının və mədəniyyətinin bütün sahələrində proqram dəyişikliyinin mükəmməl sistemini yaratmış və həyata

keçirmişdir. Azərbaycan üçün tamamilə yeni olan bir sıra xalq təsərrüfatı sahələrinin yaradılması, irimiqyaslı tikinti və sənaye obyektlərinin tikilib istifadəyə verilməsi, fundamental və tətbiqi elmlərin inkişafı sahəsindəki nəhəng sıçrayışlar məhz Onun adı ilə bağlıdır. Xüsusilə ötən əsrin 70-80-ci illərində böyük quruculuq və inkişaf mərhələsi, keçmiş və müasir Azərbaycanın bütün uğurları, qazandığı nailiyyətlər gənc yaşlarından xalqına xidmət yolunu tutaraq həyatının uzun bir dövrünü Azərbaycana rəhbərliyə həsr etmiş Heydər Əliyevin ömür yolunun canlı tarixidir.

Azərbaycanda əsası ümummilli lidermiz Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyası ötən 4 ildə vüsət almış, nəticədə respublikamız bütün sahələrdə dinamik tərəqqi yolu keçmişdir. 2003-cü ilin 15 oktyabrında xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq dövlət başçısı seçilən cənab İlham Əliyev Azərbaycanın yeni dövr üçün iqtisadi siyasət prioritetlərini açıqlamış çevik və işlək mexanizmlər üzərində yeni islahatları həyata keçirmişdir. Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının xalqın mənafeyinə uyğun davam etdirilməsi, qlobal enerji və kommunikasiya layihələrinin ardıcıl surətdə həyata keçirilməsi, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, xarici investisiyaların regionların inkişafına yönəldilməsi, yeni istehsal sahələrinin açılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, əhalinin faydalı məşğulluğunun artılırması, ölkədə azad sahibkarlıq və biznes mühitinə mane olan süni əngəllərin aradan qaldırılması kimi vacib məqamlar bu siyasətin başlıca meyarlarıdır.

Azərbaycan Prezidentinin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» və 2004-cü il 11 fevral tarixli

«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında fərmanlarında ölkə iqtisadiyyatında müşahidə olunan müsbət inkişaf meyllərinin sürətləndirilməsi, regionların tarazlı, sabit və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, infrastrukturun yeniləşdirilməsi, yeni iş yerlərinin yaradılması kimi vacib məqamlar öz əksini tapmışdır. Dövlət Proqramı əsasında həyata keçirilən kompleks tədbirlər sistemi ölkə iqtisadiyyatının ən müxtəlif sahələrinin, o cümlədən yerli və xarici investisiyalar, müasir idarəetmə texnologiyalarının cəlb olunması yolu ilə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssislərin yaradılmasına, mövcud müəssisələrin, sosial infrastrukturun yenidən qurulmasına, yeni iş yerlərinin açılması hesabına ölkədə işsizlik və yoxsulluq probleminin aradan qaldırılmasına, vətəndaşların maddi rifah halının yüksəldilməsinə yönəlmişdir.

Azərbaycan Prezidentinin fəaliyyətində ən önəmli cəhətlərdən biri də məhz onun imzaladığı dövlət proqramlarının, sərəncamların, eləcə də şifahi göstərişlərinin icrasını ciddi nəzarətdə saxlaması, məmurlara qarşı son dərəcədə tələbkar olmasıdır. Cənab İlham Əliyev görülən işlərin nəticəsi ilə yerindəcə maraqlanmaq üçün tez-tez rayonlara səfərlər edir. Dövlət başçısı insanların rahatlığına firavanlığına xidmət edən yeni-yeni sosial infrstruktur obyektlərinin açılışında yaxından iştirak edir, mövcud problemlərin həlli üçün təxirəsalınmaz tapşırıqlar verir.

Xüsusilə vurğulamaq istərdim ki, son 4 ildə Prezident İlham Əliyev müntəzəm olaraq cənub bölgəsinə də səfərlər etmiş, bu rayonların sosial-iqtisadi inkişafı istiqamətində çox işlər görmüşdür. 2005-ci il 14 sentyabr tarixində Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri,

Astara, Lerik, Masallı və Yardımlı rayonlarının, eləcə də 2007-ci ilin 29 avqust tarixində Neftçala və Hacıqabul rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncamlar imzalayan Prezident İlham Əliyev verdiyi hər bir sözə sadiq olduğunu, xalqına sədaqətlə xidmət etdiyini bir daha nümayiş etdirmişdir. «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində imzalanmış bu sənəd həmin rayonların inkişafı sahəsində əlavə tədbirləri nəzərdə tutur. Sənəddə Cənub bölgəsində turizmin inkişafı, kommunal problemlərin – su, işıq və qazla təminatın yaxşılaşdırılması, habelə mədəni-intellektual inkişafla bağlı bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bütün bunlar tam əminliklə deməyə əsas verir ki, ulu öndərimiz Heydər Əliyevin möhkəm, sarsılmaz əsaslar üzərində qurduğu müstəqil Azərbaycan dövləti sabaha doğru inamla addımlayır. Davamlı sosial-iqtisadi inkişafa, gələcək tərəqqiyə, xalqın əbədi firavanlığına hesablanmış Heydər Əliyev siyasi kursu bu gün öz əbədiyaşarlığını sübut etməkdədir. Məhz layiqli siyasi varis olan Prezident İlham Əliyevin bu kursu inamla davam etdirməsi hər bir vətəndaşda Azərbaycanın uğurlu gələcəyinə əminlik yaradır.

«Əbədiləşən görüşlər» kitabı da hər iki tarixi şəxsiyyətin Neftçala rayonuna səfərləri və uğurlu nəticələrdən irəli gələn fikirlərin məcmusudur. Kitab üç fəsildən ibarətdir. I fəsildə Ulu Öndərin 1979-cu ilin mayında, II fəsildə cənab Prezident İlham Əliyevin 2007-ci ilin avqustunda rayona səfərləri əks olunub. III fəsildə isə xatirələr toplanılmışdır. Ümidvarıq ki, bu kitab hər bir oxucuda böyük təəsürat və dolğun düşüncə tərzi yaradacaqdır.

Anar Ağalarzadə

I Fəsil

1979-cu ilin baharı. Azərbaycanın dövlət başçısı Heydər Əliyev Neftçalada

Azərbaycan KP Neftçala Rayon Komitəsinin və Rayon Xalq deputatları Sovetinin orqanı olan «Oktyabr bayrağı» qəzeti, cümə axşamı, 31 may 1979-cu il tarixli, 63 (880) saylı nömrəsində **«Heydər Əliyev Neftçalada»** adlı geniş məqalə dərc etmişdir.

HEYDƏR ƏLİYEV NEFTÇALADA

Mayın 30-da Sovet İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nin 1-ci katibi Heydər Əliyev Neftçalada olmuşdur.

Heydər Əliyev rayonun Qaraqaşlı quşçuluq fabrikinə getmiş, fəhlələrlə görüşüb söhbət etmişdir. Heydər Əliyev həmin gün rayondakı «Azərbaycan» və « 1 May» kolxozlarının pambıq tarlalarında, heyvandarlıq komplekslərində, taxıl sahələrində olmuş, kolxozçularla görüşmüşdür.

Heydər Əliyev Yeni Neftçala Yod-Brom zavodunun tikintisinə getmiş, Bankə Balıq kombinatında istehsal prosesləri, habelə fəhlələrin iş və məişət şəraiti ilə yaxından tanış olmuş, Neftçalanı gəzmiş, şəhər əhalisinin istirahəti ilə maraqlanmışdır.

Həmin gün şəhərin mədəniyyət evində rayon partiya təsərrüfat fəallarının yığıncağı keçirilmişdir.

Neftçala Rayon Partiya Komitəsinin birinci katibi İ.Qurbanovun bu ilin beş ayı ərzində və bütünlüklə onuncu beşilliyin üç ilində qazanılmış əmək nailiyyətləri, habelə rayonda aparılan geniş tikinti və abadlıq işləri barədə məlumatı dinlənildi.

Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyev yığıncaqda böyük nitq söyləmişdir.

*** *** *** *** *** *** ***

Ümumilli liderimizin bu səfərindən doğan xoş təəsüratlar və maraqlı görüşlər hələ bir müddət mətbuat səhifələrində işıqlandırıldı və ictimaiyyətə yeni-yeni məlumatlar verildi. Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün yorulmadan çalışan Heydər Əliyevin kənd zəhmətkeşləri ilə görüşü bunu bir daha sübut edir.

Rayonun «Oktyabr bayrağı» qəzetinin çərşənbə axşamı, 5 iyun 1979-cu il, №65 (882) sayında **«Partiya irəli səsləyir»** adlı yazıda Heydər Əliyevin Neftçala zəhmətkeşlərini yeni əmək nailiyyətlərinə ruhlandırmasından və bunun müqabilində kənd zəhmətkeşlərinin öhdəliyindən bəhs edilir.

PARTİYA İRƏLİ SƏSLƏYİR

Heydər Əliyevin rayonumuzda olması Neftçala zəhmətkeşlərini yeni əmək nailiyyətlərinə ruhlandırmışdır.

Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyevin rayonumuza gəlişi əsil bayrama, toy-düyünə çevrilmişdir. O günlərin təəsüratı kolxozumuzun əmək adamlarının hafizəsində uzun müddət yaşayacaq, hər zaman fərəhlə xatırlanacaqdır. Heydər Əliyevin kolxozçularımızla iş üstündə görüşüb səmimi söhbət etməsi, onların məişət, istirahət şəraitləri ilə maraqlanması partiya və hökumətimizin kənd əməkçilərinə daimi qayğısının təzahürüdür.

Biz bu qayğıya cavab olaraq əvvəlcədən qəbul olunmuş öhdəliklərimizi 800 ton da artırıb cari ildə dövlətə 4000 ton pambıq satmağa söz vermişik.

Vədin yerinə yetirilməsi üçün kolxozumuzda hər cür imkan və şərait var. Pambıqçılarımız arasında hökm sürən xoş əhval-ruhiyyə yeni öhdəliyin yerinə yetiriləcəyinə inam yaradır. Biz istər tarlaların becərilməsində, istərsə də məhsul toplanılmasında qarşıya qoyulmuş məqsədə çatmaq üçün qüvvələrimizi əsirgəməyəcək, yaxşı işimizlə partiya və hökumətimizin etimadını doğrultmağa çalışacağıq.

K.Mehtiyev
«1 May» kolxozunun sədri

Öhdəliyim 3500 kq-dır

Əməkçilərimiz əsil fərəhli günlər yaşadılar. Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyevin rayonumuzda, o cümlədən kolxozumuzun heyvandarlıq komplekslərində olması əməkçilərimizin ruh yüksəkliyini, əmək coşğunluğunu qat-qat artırmışdır. Heydər Əliyev komplekslərdə olarkən sadə əmək adamları ilə səmimi, işgüzar söhbətlər etdi, onların həyat şəraiti ilə yaxından tanış oldu, dəyərli məsləhətlər verdi. Görüşünün sonunda xatirə olaraq ferma əməkçiləri ilə şəkil çəkdirdi. Bu bizə qol-qanad verdi.

Yeni qələbələrin sorağı ilə yaşayırıq. Daha böyük nailiyyətlər uğrunda mübarizə aparmaq partiyanın tələbi, zamanın tələbidir. Buna görə də mən şəxsi öhdəliyimi, daha 500 kq artırmağı, hər inəkdən 3.500 kq süd sağmağı öhdəlik götürürəm.

Əminə Mirişova
«Azərbaycan kolxozu»nun sağıcısı

*** *** *** *** *** *** ***

Qəzetin həmin sayında dərc edilmiş **«Neftçalada səmimi görüşlər»** məqaləsində H.Əliyevin rayondakı bir neçə kolxozlara baş çəkməsi, işçilərin əmək və məişət şəraiti ilə tanışlığından bəhs edilir.

NEFTÇALADA SƏMİMİ GÖRÜŞLƏR

Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyev mayın 30-da rayonumuzda olarkən «Azərbaycan», «1 May» kolxozlarını, bir sıra sənaye müəssisələrini gəzmiş, tarlalarda və fermalarda işlərin gedişi ilə, onlara göstərilən mədəni xidmətin təşkili ilə maraqlanmışdır. Heydər Əliyev əmək adamları ildə görüşlər zamanı onlara bir sıra dəyərli məsləhətlər və tövsiyyələr vermişdir. Sevimli rəhbərimiz əməkçilər tərəfindən hər yerdə böyük mehribanlıqla, gül-çiçək dəstələri ilə qarşılanmışdır.

Heydər Əliyev sənaye müəssisələrində sexləri gəzmiş, işlərin gedişi ilə ətraflı tanış olmuşdur. O, mütəxəssislərlə söhbət etmiş, fabriki bu il avqustun axırında istifadəyə vermək, onun layihə gücündən tezliklə istifadə etmək vəzifəsini qarşıya qoymuşdur.

Heydər Əliyev müəssisə gənclərinin təhsili ilə maraqlanmış, onların istək və arzularını soruşub öyrənmişdir. O, müəssisənin ixtisaslı kadrlarla təchiz olunması zərurətini xüsusi qeyd etmişdir.

«Azərbaycan» kolxozu idarə heyətinin sədri A.Həsənov təsərrüfatın ümumi vəziyyəti haqqında məlumat vermişdir. O, göstərmişdir ki, kolxoz iqtisadiyyatı ildən-ilə möhkəmlənir, hər hektarın məhsulu getdikcə artır. Keçən il 720 hektar pambıq

sahəsinin hər hektarından 51 sentner, 1080 hektar taxıl zəmisinin hər hektarından 30 sentner məhsul əldə edilmişdir. Kolxoz əməkçiləri bu il daha yüksək göstəricilər uğrunda mübarizə aparırlar.

Heydər Əliyev kolxozda məhsuldarlığı yüksək olan damazlıq mal-qaradan ilk nəslin əldə edildiyi yeni heyvandarlıq kompleksi ilə tanış olmuşdur. Fermanın müdiri Ələmxan Rəhmanov vəziyyətlə bağlı ölkə rəhbərinə məlumat vermişdir. Heydər Əliyev kompleksdə hər inəkdən nə qədər süd sağıldığı ilə maraqlanmışdır. Öyrənəndə ki, bu rəqəm cəmi 2.600 kq-dır, o, heyvandarlığın məhsuldarlığını durmadan yüksəltməyi, hər inəkdən süd sağımını ildə azı 3000 kiloqrama çatdırmağı tövsiyyə etmişdir.

Heydər Əliyev təsərrüfatın qabaqcıl sağıcısı Əminə Mirişova ilə xatirə şəkli çəkdirmişdir.

Təsərrüfatın qabaqcıl briqadirlərindən olan Rza Nədiyevin tarlalarını gəzərkən Heydər Əliyev buradakı vəziyyətdən əsasən razı qaldığını bildirmişdir. Rza Nədiyevin briqada üzvləri sevimli rəhbərimizin onlarla görüşüb söhbət etməsindən ruhlanaraq becərdikləri tarlaların hər hektarından planda nəzərdə tutulmuş 41 sentner əvəzinə 65 sentner məhsul toplayacaqlarına söz vermişlər.

Heydər Əliyev kolxoz əməkçilərinin rifahı, məişəti, gənclərin təhsili ilə maraqlanmış, onların istək və arzularını soruşmuşdur. O, beşillik yollarında təsərrüfat işçilərinə daha böyük müvəffəqiyyətlər arzulamışdır.

Adı bütün respublikamızda məşhur olan Qırmızı Əmək Bayrağı ordenli «Azərbaycan» kolxozunda – Şükür Ataşovun briqadasında Heydər Əliyevi çox böyük ruh yüksəkliyi ilə qarşılamışlar. Kolxozun sədri Nuruş Əliyev rayonda ən yaxşı təsərrüfatın məvəffəqiyyətlərindən fərəhlə danışmışdır. O,

göstərmişdir ki, Neftçala rayonu təşkil olunarkən – 1973-cü ildə təsrrüfatın pambıq tarlalarının hər hektarından cəmi 18-20 sentner məhsul götürülürdü. İndi isə bu rəqəmlər 48-50 sentnerə, bəzi briqadalarda isə 60 sentnerdən də yüksəyə çatdırılmışdır. Məhsuldarlığın yüksəldilməsi adamların rifah halının yaxşılaşmasına bilavasitə təsir göstərmişdir. Məsələn, kolxozçuların orta aylıq əmək haqqı doqquzuncu beşillikdən 47 rubl artırılaraq 201 rubla çatdırılmışdır. İndi, demək olar, hər üç ailədən birinin qapısında minik maşını var. Daha 200 kolxozçu maşın almaq üçün növbəyə dayanmışdır.

Heydər Əliyev təsərrüfatın iqtisadi göstəricilərindən razı qaldığını bildirmişdir. Lakin qeyd etmişdir ki, bütün bunlar hələ son həddeyil. Cari ildə gərək rekord məhsul əldə edilsin. Çünki, bu il respublikamızın 60 illik yubileyinə hazırlıq ilidir. L.İ.Brejnevin Bakıda şənliklər zamanı çıxışlarında irəli sürdüyü vəzifələrin həyata keçirilməsi ilidir.

Heydər Əliyev təsrrüfatda yem tədarükünün vəziyyəti ilə tanış olmuş və tövsiyyə etmişdir ki, senaj hazırlanmasına diqqət daha da artırılmalı, toplanmış otun hamısı bu məqsədə sərf olunmalıdır.

Görüşdə iştirak edən briqada üzvləri xatirə olaraq Heydər Əliyevlə şəkil çəkdirmişlər.

Heydər Əliyev kolxozun mədəniyyət evi ilə, buradakı şəkil qalereyası ilə tanış olmuş, bütün bunlardan razı qaldığını bildirmişdir. Bununla yanaşı o, təsərrüfat işçilərinə bir sıra dəyərli tövsiyyələr də vermiş, kənd əməkçilərinin ideoloji tərbiyəsini daha da yaxşılaşdırmaq, bədii özfəaliyyət kollektivlərini genişləndirmək işini daha da sürətləndirmək zərurətini qeyd etmişdir. Mədəniyyət evindəki kitabxana ilə tanış olarkən Heydər Əliyev göstərmişdir ki, kitab fondunun müntəzəm təzələnməsinə daim ciddi diqqət yetirilməli, kitab sərgilərinin

Heydər Əliyev Neftçalada – 30 may 1979-cu il

El ağsaqqalı Nuruş Əliyevlə – 30 may 1979-cu il

Zəhmətkeşlərlə görüş – 30 may 1979-cu il

Bankə Balıq Kombinatında təftişə doğru... – 30 may 1979-cu il

Bankə Balıq Kombinatında – 30 may 1979-cu il

Qayğıkeş baba – 30 may 1979-cu il



Müvəffəqiyyətlər və tələblər – 30 may 1979-cu il

İstirahət parkı ilə tanışlıq – 30 may 1979-cu il



Azərbaycan SSRİ Sənaye Tikintisi naziri B.Пашюрам ağır hesabat qarşısında – Neftçala, 30 may 1979-cu il

İctimaiyyətlə görüş - 30 may 1979-cu il

Layiqli işə layiqli qiymət - 30 may 1979-cu il

Çörək bol olarsa... - 30 may 1979-cu il

Tapşırıqlar, məqsədlər... - 30 may 1979-cu il

Qaraqaşlı quşçuluq fabrikində - 30 may 1979-cu il

Məhsul yetişdirən əllərə təşəkkür - 30 may 1979-cu il

Kürü istehsalı sexi ilə tanışlıq -30 may 1979-cu il

təşkilinə xüsusi fikir verilməlidir. O kitablar sərgiyə qoyulmalıdır ki, onlar hamı tərəfindən maraqla oxunsun.

Kolxoz əməkçiləri Heydər Əliyevin təsərrüfata gəlişi ilə əlaqədar yeni artırılmış öhdəliklər qəbul etmişlər. Onlar 1100 hektar pambıq sahəsindən əvvəlki öhdəlikdə nəzərdə tutulmuş 5870 ton əvəzinə 6000 ton «ağ qızıl» götürəcəklərinə söz vermişlər.

Son illər rayonun sürətlə inkişaf edən təsərrüfatlarından biri də «1 May» kolxozudur. Heydər Əliyev bu təsərrüfatın əməkçiləri ilə görüşdən, buradakı inkişafın vüsətindən çox razı qaldığını bildirmişdir. Kolxozun sədri K.Mehdiyev təsərrüfatın ümumi işi, tarlaların hazırki vəziyyəti barədə məlumat verərək göstərmişdir ki, bütün sahələr üzrə nailiyyətlər ildən-ilə möhkəmləndirilir, əmək adamlarının rifahı durmadan yaxşılaşdırılır. Məsələn, keçən il taxıl zəmilərinin hər hektarından 28 sentner, pambıq tarlalarının hər hektarından 47,8 sentner məhsul toplanmışdır. Bu il kolxozçular həmin göstəriciləri müvafiq olaraq 35 və 52,5 sentnerə çatdırmaq uğrunda mübarizə aparırlar. Bu il 450 hektar sahədə «Meksika» sortlu yüksək məhsuldarlıqlı buğda əkilmişdir. Həmin sahələrin hər hektarından ən azı 50 sentner «Sarı kəhrəba» götürüləcəyi nəzərdə tutulur.

Tarla əməkçiləri də bu günlər fədakarlıqla çalışırlar. Onların gərgin əməyi sayəsində bitkilər sürətlə böyüyür, boy atır. Ümumiyyətlə, keçən illə müqayisədə pambıq kollarının inkişafı təqribən yarım ay irəlidir.

Kolxozun ayrı-ayrı briqadalarındakı vəziyyət Heydər Əliyevi xüsusilə razı saldı. Məsələn, Zabit Bağırovun başçılıq etdiyi briqada cari ildə tarlalarda bol məhsul yetişdirir. Onlar onuncu beşilliyin dördüncü ilində dövlətə 530 ton məhsul satmaq uğrunda mübarizə aparırdılar. Heydər Əliyevlə

görüşdən ruhlanan briqada üzvləri elə oradaca öhdəliklərini daha 50 ton artırdı. Heydər Əliyev razılıq hissi ilə qeyd etdi ki, deməli, cari ildə təkcə bu briqada vaxtilə bütövlükdə «1 May» kolxozunun verdiyi məhsuldan da artıq pambıq istehsal edəcəkdir.

Təsərrüfatın digər sahələrində də mühüm irəliləyişlər əldə edilmişdir. Heyvandarlıq məhsulları istehsalı durmadan artır.

Heydər Əliyev kolxozçuların mədəni-məişət şəraiti ilə də maraqlanmış, onların arzularını, təkliflərini soruşmuşdur. Kolxozçular bu barədə məlumat verərkən bildirmişlər ki, təsərrüfatın yerləşdiyi Boyat kəndinin siması son illər tanınmaz dərəcədə dəyişmiş, burada çoxlu ictimai binalar inşa olunmuş, kolxozçular özləri üçün müasir üslublu yaraşıqlı evlər tikdirmişlər. Kolxozun sədri K.Mehdiyev qeyd etmişdir ki, vaxtilə adi velosipedin belə olmadığı bu kənddə indi, demək olar, hər qapıda xüsusi minik maşını dayanır. Hələ nə qədər kolxozçu, maşın növbəsindədir.

Zabit Bağırovun briqadasında keçirilmiş yığıncaqda Heydər Əliyev çıxış edərək kolxozun əmək adamlarını qazandıqları böyük müvəffəqiyyətlərə görə təbrik etmişdir.

Təsərrüfatın əmək adamları partiya və hökumətimizin onların rifahına göstərdikləri dərin və hərtərəfli qayğı üçün səmimi minnətdarlıqlarını bildirmiş, bu qayğıya yeni əmək fəalları ilə cavab vermək əzmində olduqlarını söyləmişlər. Onlar Heydər Əliyevin təsərrüfata gəlişinə cavab olaraq yeni öhdəlik qəbul etmiş, becərdikləri tarlalardan əvvəlcə öhdəyə götürdükləri 3200 ton əvəzinə 4000 ton pambıq götürəcəklərini bildirmişlər.

Heydər Əliyev Yeni Neftçala Yod-Brom Zavodunu, Bankə balıq kombinatını da gəzmiş, əməkçilərlə görüşüb söhbət etmiş, onların məişəti, arzu və təklifləri ilə maraqlanmışdır. Rayonun əmək adamları vəziyyətlərinin yaxşı olduğunu söyləmiş, respublika iqtisadiyyatının hərtərəfli inkişafına daima atalıq qayğısı göstərdiyinə görə Heydər Əliyevə təşəkkürlərini bildirmiş, onu əmin etmişlər ki, beşilliyin dördüncü ilində daha fədakarlıqla işləyəcək, 1979-cu ilin və bütövlükdə onuncu beşilliyin planlarını vaxtından əvvəl yerinə yetirəcəklər.

Heydər Əliyev Kür çayı üzərində inşa olunmuş yeni avtomobil yolu körpüsünə baş çəkmiş, rayonun iqtisadiyyatını yüksəltmək, eləcə də əməkçilərə nəqliyyat xidmətini yaxşılaşdırmaq üçün inşa olunan körpünün böyük əhəmiyyət kəsb etdiyini qeyd etmişdir.

Heydər Əliyev Neftçala şəhərindəki mədəniyyət və istirahət parkını gəzmiş, univermaqda, «Uşaq aləmi» mağazasında və yeni kolkoz bazarında olmuşdur. Şəhərlə, onun mağazaları, kafeləri, mədəniyyət parkı ilə tanışlıqdan aldığı təəsüratdan danışarkən o, belə bir cəhətdən razı qaldığını bildirmişdir ki, **xidmət sahəsində əsasən qızlar, qadınlar çalışırlar. Sizin kolxoz bazarındakı şərait respublikanın digər rayonlarına, hətta bəzi cəhətlərdən Bakı kolxoz bazarına da nümunə ola bilər. Sizin rayonun nümunəsi Azərittifaq rəhbərliyinin belə bir fikrini təkzib edir ki, kənd yerində qadınları və qızları ticarətə cəlb etmək guya çətindir.**

Əhalinin mədəniyyətinin yüksəlməsinə, adamların istirahətinə, onlar üçün yaxşı əmək və həyat şəraiti yaradılmasına qayğı çox vacib məsələdir. Şəhərinizdə adamların istirahəti üçün yaranmış şərait çox xoşuma gəldi. Burada salınmış parkda çoxlu attraksion işləyir. Demək lazımdır ki, rayon mərkəzlərinin heç birində bu qədər attraksion yoxdur. Zənnimizcə, bu iş gələcəkdə daha böyük vüsət alacaqdır. Elə etmək lazımdır ki, təkcə rayon mərkəzi deyil, Neftçala rayonunun bütün kəndləri və qəsəbələri müasir görkəmə malik olsun, daha da gözəlləşsin, abadlaşsın.

*** *** *** *** *** *** ***

Heydər Əliyevin Neftçalada keçirdiyi səmimi görüşlərin nəticələri ölkə mətbuatında geniş əks-səda doğurdu. Azərbaycan KP MK-nin, Azərbaycan SSRİ Ali Sovetinin və Nazirlər Sovetinin orqanı olan «Kommunist qəzeti»nin 01 iyun 1979-cu il №123 (17162) saylı buraxılışında **«Müvəffəqiyyətləri möhkəmləndirməli, yeni zirvələr fəth etməli»** başlığı altında geniş yazı dərc edildi. Rayon mədəniyyət evində H.Əliyevin partiya təşkilatları ilə keçirdiyi geniş müşavirə bu materialda əks olunmuşdur.

MÜVƏFFƏQİYYƏTLƏRİ MÖHKƏMLƏNDİRMƏLİ, YENİ ZİRVƏLƏR FƏTH ETMƏLİ

Neftçala rayonu partiya və təsərrüfat fəallarının yığıncağında kənd təsərrüfatı işlərinin gedişi və 1979-cu ilin planlarını və öhdəliklərini yerinə yetirmək sahəsində rayon partiya təşkilatlarının vəzifələri müzakirə olunmuşdur.

Neftçala rayon Partiya Komitəsinin birinci katibi İ.Qurbanov beşilliyin dördüncü ilinin məhsulu uğrunda rayonda necə mübarizə aparıldığından, sənaye, tikinti işlərinin müvəffəqiyyətlərindən danışmışdır.

«Azərbaycan» kolxozunun sədri Nuruş Əliyev, 1 nömrəli məktəbin direktoru Cavad Mirzəyev, «1 May» kolxozu ilk partiya təşkilatının katibi Balacaxanım Əsədova, Bankə qəsəbə xalq deputatları sovetinin sədri Həlimə Əsədova, «Azərbaycan» kolxozunun briqadiri Rza Nədiyev yığıncaqda çıxış edərək, Sov.İKP MK-nın Azərbaycana daim diqqət və qayğısı üçün SSRİ rəhbərliyinə ürəkdən təşəkkür etmişlər. Onlar onun-

cu beşilliyin zərbəçi əmək növbəsində rayon zəhmətkeşlərinin müvəffəqiyyətlərindən danışmış və demişlər ki, rayonun əməkçiləri Leonid İliç Brejnev Bakıda şənliklərdə olarkən ona verdikləri vədə – 1979-cu ilin və ümumən beşilliyin planlarını və sosialist öhdəliklərini vaxtından əvvəl yerinə yetirmək vədinə şərəflə əməl etmək əzmindədirlər. Rayonun əməkçiləri aşkara çıxarılmış ehtiyat mənbələrindən istifadə etmək, işin səmərəliliyini və keyfiyyətini daha da yüksəltməklə dövlətə əvvəllər vəd etdikləri 22 min ton əvəzinə 30 min ton pambıq, əvvəllər nəzərdə tutulan 25 min ton əvəzinə 30 min ton taxıl satmaq barəsində yeni öhdəliklər qəbul etmişlər.

Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev yığıncaqda böyük nitq söyləmişdir. Fəallar, yığıncaq iştirakçıları onu səmimi qarşılamışlar.

Heydər Əliyev demişdir: - **Sizin rayonunuz gəncdir. Biz razılıq hissi ilə qeyd edirik ki, cəmi 6 il ərzində rayonda çox böyük dəyişikliklər baş vermiş, sənayenin, kənd təsərrüfatının, mədəniyyətinin inkişafında partiyamızın başlıca məqsədinin həyata keçirilməsində – zəhmətkeşlərin rifahının yüksəldilməsində böyük nəticələr əldə edilmişdir. Təkcə keçən il Neftçala zəhmətkeşləri dövlətə 27 min ton pambıq sataraq planı xeyli artıqlaması ilə yerinə yetirmişlər. Yaxşı yadımızdadır ki, bir vaxtlar üst-üstə Salyan və Neftçala rayonları təqribən bu qədər pambıq istehsal edirdilər. Əvvəllər rayon şəraitində hər hektardan 18 sentner pambıq norma sayılırdı. Bu gün isə məsələn, «Azərbaycan» kolxozunda hər hektarda 48,5 sentner pambıq yetişdirilməsi son həddi deyildir.**

Kənd təsərrüfatının başqa sahələrində qazanılmış müvəffəqiyyətlər də yüksək qiymətə layiqdir. Məsələn, yaxın keçmişdə rayonda hər hektardan 20 sentner taxıl götürülməsi nailiyyət

sayılırdı. İndi isə 30, 40 və hətta 50 sentnerdən söhbət gedir. Halbuki vəziyyət demək olar dəyişməmişdir: adamlar da həmin adamlardır, şərait də həmin şəraitdir. Torpaq da həmin torpaqdır.

Heydər Əliyev daha sonra sənayedə müəyyən nəticələr əldə edildiyini də göstərərək demişdir ki, beşilliyin zərbəçi əmək növbəsində rayon zəhmətkeşlərinin müvəffəqiyyətləri layiqincə qiymətləndirilmişdir.

Heydər Əliyev son iki ildə Neftçalanın simasında baş vermiş mühüm dəyişikliklərdən danışarkən, burada abadlaşdırma sahəsində intensiv iş aparıldığını qeyd edərək demişdir ki, burada abadlıq işləri böyük zövqlə həyata keçirilir, arxitektura cəhətdən maraqlıdır.

Heydər Əliyev sözünə əlavə edərək demişdir: - **Neftçala rayonunda işgüzar şərait, sağlam mənəvi-siyasi əhval ruhiyyə yaranmışdır. Təsərrüfatlarda görüşlər, kolxozçular və fəhlələrlə söhbətlər zamanı biz bunu yəqin etdik. Burada əməkçilərin və rəhbər işçilərin mədəni səviyyəsi yüksəkdir, yaxşı kadrlar yetişir. Lakin sizin nailiyyətləriniz baş gicəllənməsinə, arxayınlığa, lovğalığa səbəb olmamalıdır.**

Rayonda qabaqcıl təsərrüfatlarla yanaşı elə təsərrüfatlar da vardır ki, məsələn, hər hektardan 20 sentner pambıq götürür. Bu, ən yaxşı nəticələrdən az qala 2,5 dəfə azdır. Təsərrüfatın geridə qalan sahələrində – heyvandarlıqda yaranmış vəziyyət xüsusilə təşviş hissi doğurur. Onuncu beşilliyin heyvandarlıq məhsulu tədarükünə dair üç illik tapşırığı yerinə yetirilmiş olsa da, ət, yun və yumurta istehsalı üzrə planlaşdırılmış göstəricilər əldə edilməmişdir, heyvandarlığın geriliyindən dəyən zərər artır. Başlıca nöqsan bundan ibarətdir ki, doğar mal-qaranın sayca artması tapşırıqları yerinə yetirilmir. İnəklərin və camışların sayını xeyli artırmaq, quşların sayca artmasına nail olmaq,

bütün mal-qara və quş növlərinin məhsuldarlığını yüksəltmək lazımdır.

Başqa nöqsalar da vardır. Belə ki, ət tədarükü hesabına təhvil verilən mal-qaranın çəkisi o qədər də çox deyil, ötən il həmin çəki orta hesabla 234 kiloqrama bərabər olmuşdur ki, bu da respublika səviyyəsindən aşağıdır. Qoyun təhvilində də eynilə vəziyyət bu cürdür. Yem istehsalında işlər yarıtmazdır, beşilliyin üç ilinə silos, kökümeyvə yem bitkiləri, ot unu, qüvvəli yem tədarükünə dair planları pozulmuşdur.

İndi rayonda mal-qaranın cinsi təzələnir. Bu ət və süd istehsalını artırmağa imkan verəcəkdir. Lakin, heyvandarlığı yalnız damazlıq mal-qara gətirmək yolu ilə yüksəltmək olmaz. Çox zəhmət tələb edən bu sahədə qabaqcıl zootexnika metodlarını daha geniş təbiq etmək, istehsal mədəniyyətinin yüksəlməsinə, mal-qaranın bəslənilməsinin yaxşılaşdırılmasına nail olmaq lazımdır.

Rayonun əməkçiləri qarşısında Heydər Əliyevin irəli sürdüyü əsas vəzifələr sırasında kənd təsərrüfatı məhsulunun, o cümlədən pambığın keyfiyyətini hər vasitə ilə yaxşılaşdırmaq vəzifəsi də vardır. «Həm kəmiyyət, həm də keyfiyyət!» şüarı bütün tarla və ferma işçilərinin mübariz şüarı olmalıdır.

Heydər Əliyev qeyd etmişdir ki, **rayonun sənayesində də işlərin vəziyyətini yaxşılaşdırmaq lazımdır. Doğrudur, sizin neftçiləriniz son vaxtlar öz göstəricilərini bir qədər yüksəltmişlər, lakin plan ümumən yerinə yetirilmir, gerilik çoxdur. Neftçala Neft və Qazçıxarma İdarəsi, rayon partiya təşkilatı və Azərneft Birliyi yaranmış vəziyyəti dəyişmək üçün ən ciddi tədbirlər görməlidirlər.**

Bu gün biz Bankə qəsəbəsinə getdik, balıqçıların işi ilə tanış olduq. Açıq deməliyik ki, Xəzər Balıqçılıq Sənayesi Baş İdarəsinin Azərbaycan Məhəlli Birliyi yarıtmaz işləyir. Balıqçılıq

kombinatında əmək şəraiti yaxşı deyildir, avadanlıq aşınmışdır, köhnəlmiş texnologiya tətbiq oluunur. Kombinatı modernləşdirmək, burada yeni sexlər və zavodlar tikmək, Azərbaycan balıqçılarının işinin səmərəliliyini hər vasitə ilə yüksəlmək üçün ciddi tədbirlər görülməlidir. Yod-brom zavodunun fəaliyyətində hələlik heç də hər şey qənaətbəxş deyildir. Bu profildən yeni müəssisənin tikinti meydançasında biz yəqin etdik ki, inşaatçıların iş şəraiti kökündən yaxşılaşdırılmalıdır.

Heydər Əliyevin çıxışında ideoloji işin daha da təkmilləşdirilməsi, zəhmətkeşlərin mənəvi tərbiyəsi məsələləri də geniş yer tutmuşdu. O, «İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında» Sov.İKP MK-nın qərarını yerinə yetirmək sahəsində «Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda Bakıda keçirilmiş Ümumittifaq elmi-praktik konfransının materialları ilə əlaqədar olaraq, rayon partiya təşkilatının qarşısında duran vəzifələrdən xüsusi danışdı.

Heydər Əliyev kolxozlarda, müəssisələrdə, yeni tikintilərdə olmuşdur. O, tarlalarda və fermalarda işlərin gedişi ilə, kolxozçuların əmək və məişət şəraiti ilə, onlara göstərilən mədəni və ticarət xidmətinin təşkili ilə maraqlanmışdır.

İldə 2,3 milyon broyler istehsal etməli olan Qaraqaşlı broyler fabrikinin tikintisi ilə bağlı Heydər Əliyev göstərmişdir ki, müəssisənin tikilmə sürəti və görülən işlərin keyfiyyəti əsla qənaətbəxş deyildir. O, fabriki bu il avqustun axırında istifadəyə vermək, onun layihə gücündən tezliklə istifadə etmək vəzifəsini qarşıya qoymuşdur.

Məhsuldarlığı yüksək olan damazlıq mal-qaradan ilk nəslin əldə edildiyi «Azərbaycan» kolxozunda yeni heyvandarlıq kompleksi ilə tanışlıq zamanı heyvandarlığın məhsuldarlığını yüksəltmək, hər inəkdən süd sağımını ildə 3000 kiloqrama

çatdırmaq zərurətindən bəhs etmişdir.

Heydər Əliyev kolxoz mədəniyyət evinə yüksək qiymət verərək, kənd əməkçilərinin ideoloji tərbiyəsini daha da yaxşılaşdırmaq, bədii özfəaliyyət kollektivlərini genişləndirmək işini daha da yaxşılaşdırmağın zəruri olduğunu söyləmişdir.

«1 May» kolxozunda Zabit Bağırovun briqadasının tarla düşərgəsində kollektivin başçısı, pambıq əkinlərinin məhsuldarlığı haqqında, əkinçilərin yüksək əmək coşğunluğu haqqında danışmışdır. Söhbət zamanı kollektivin yüz hektardan 580 ton pambıq yığmaq təşəbbüsü yüksək qiymətləndirilmişdir. Halbuki, səkkiz il əvvəl bütün kolxoz bu qədər pambıq istehsal edirdi.

Kolxozçular Azərbaycan kəndinin əməkçilərinə, respublikada kənd təsərrüfatının inkişafına daim qayğı göstərən Heydər Əliyevə səmimi təşəkkürlərini bildirmişlər. Onlar əmin etmişlər ki, beşilliyin dördüncü ilində daha fədakarlıqla işləyəcək, 1979-cu ilin planlarını vaxtından əvvəl yerinə yetirəcəklər.

*** *** *** *** *** *** ***

Ölkədə dərc olunan digər kütləvi-informasiya vasitələrində də həmin vaxt «Azərinform»un ulu öndərin tarixi səfərindən irəli gələn geniş materialları çap edilmişdi. Azərbaycan KP MK-nın qəzeti olan **«Vışka»**nın cümə günü, 01 iyun 1979-cu il, № 123 (14 789) saylı, Azərbaycan KP MK-nin, Azərbaycan SSRİ Ali Sovetinin və Nazirlər Sovetinin orqanı olan «Бакинский рабочий» qəzetinin 01 iyun 1979-cu il tarixli № 123 (18 555) saylı buraxılışlarında **«Закреплять успехи, брать новые рубежи»** adlı iri həcmli materiallar yer alır.

*** *** *** *** *** *** ***

Dövlət xadimi Heydər Əliyev, rayona etdiyi tarixi səfərdən qısa müddət sonra Azərbaycan KP Mərkəzi Komitəsinin geniş iclasında Neftçala rayonu üçün bir neçə əhəmiyyətli qərarlar vermişdir. Azərbaycan KP MK Neftçala rayonu pambıqçılarının dövlətə plandan əlavə pambıq satışına dair yeni, artırılmış öhdəlikləri haqqında qərarı bu iclasda qəbul etmişdir. «Kommunist qəzeti»nin çərşənbə günü, 27 iyun 1979-cu il tarixli № 145 (17 184) saylı buraxılışında çap olunan qərarda deyilir:

Azərbaycan KP MK qeyd etmişdir ki, Neftçala rayonunun kənd təsərrüfatı əməkçiləri partiyanın 25-ci qurultayının, Sov. İKP MK iyul (1978-ci il) plenumunun qərarlarını, Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnevin Azərbaycanda olarkən verdiyi məsləhətləri və göstərişləri həyata keçirərək, son illər kənd təsərrüfatının bütün sahələrinin inkişafında və əsas bitki olan pambıq istehsalında xüsusilə böyük müvəffəqiyyətlər qazanılmışdır. Keçən il pambığın məhsuldarlığı hər hektarda 37,5 sentnerə çatdırılmışdır. Dövlətə plandan əlavə 10 min ton pambıq verilmişdir. Maşınla 10 min ton pambıq yığılmışdır ki, bu da tapşırıqda nəzərdə tutulduğundan xeyli çoxdur. Sosialist əməyi qəhrəmanı Cənnət Quliyevanın, Xanhüseyn Hacıyevin, Siyaxan Bəşirovun, Əlimirzə Səmədovun rəhbərlik etdikləri pambıqçılıq briqadaları və başqaları ildən-ilə sabit və yüksək məhsul – hər hektardan 40 və 45 sentner pambıq götürürlər. Pambıqçılıq briqadaları arasında iki beşillik planı bir beşillikdə yerinə yetirmək uğrunda yarış genişləndirilmişdir.

Rayonun pambıqçıları bu il çiyid səpinini optimal müddətlərdə və yüksək aqrotexnika səviyyəsində keçirmiş, yaxşı cücərtilər

almış, bitkilərə keyfiyyətlə qulluq etmiş və hər təsərrüfat imkanlarını hesablayaraq yeni, artırılmış sosialist öhdəlikləri götürməyi qət etmişlər.

Onlar 1979-cu ildə pambıq istehsalını və dövlətə satışını 30 min tona çatdırmağı nəzərdə tutmuşlar. Bu, əvvəllər qəbul olunmuş öhdəliklərdə müəyyən edildiyindən 9000 ton çoxdur. Rayonun pambıqçıları İpatovo əkinçilərinin metodunu geniş tətbiq edəcək, pambıqyığan maşınlarla azı 10 000 ton pambıq toplayacaqlar.

«Azərbaycan» və N.Nərimanov adına kolxozların hər birinin əməkçiləri dövlətə 6000 ton, «1 May» kolxozunun və M.B.Qasımov adına kolxozun hərəsinin əməkçiləri 4000 ton pabmıq satmağı öhdələrinə götürmüşlər.

Rayonun pambıqçıları onuncu beşilliyin dördüncü ilində «Həm kəmiyyət, həm də keyfiyyət» şüarı altında işləməyi qərara almışlar. Neftçala rayonunun əməkçiləri bu il rekord miqdarda bitkiçilik və heyvandarlıq məhsulları istehsal etmək və dövlətə satmaq barəsində də öhdəlik götürmüşlər.

Azərbaycan KP MK 30 min ton pambıq istehsal etmək və dövlətə satmaq, maşınla azı 10 min ton məhsul toplamaq barəsində yeni, artırılmış sosialist öhdəlikləri qəbul edən Neftçala rayonu pambıqçılarının təşəbbüsünü bəyənmişdir.

Vilayət, şəhər, rayon partiya komitələrinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, DQMV İcraiyyə Komitəsinə, rayon icraiyyə komitələrinə, kolxoz və sovxozların ilk partiya təşkilatlarına bir vəzifə olaraq tapşırılmışdır ki, Neftçala rayonu pambıqçılarının təşəbbüsünü geniş yaysınlar, kənd təsərrüfatı məhsulları istehsalını xeyli artırmaq üçün hər bir təsərrüfatın, briqadanın və sahənin imkanlarını aşkara çıxarsınlar və bu imkanlardan maksimum istifadə etsinlər.

Kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı, tədarük,

avtomobil nəqliyyatı nazirliklərinə, «Dövlətkəndtextəminat» Komitəsinə, Azərbaycan Baş Pambıqtəmizləmə Sənayesi İdarəsinə təklif olunmuşdur ki, Neftçala rayonu təsərüfatlarının qəbul etdikləri yeni, artırılmış sosialist öhdəliklərinin müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etməkdə həmin təsərrüfatlara yardım göstərsinlər.

Respublika qəzetlərinin redaksiyalarına, Azərinforma, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə tapşırılmışdır ki, plandan əlavə daha çox pambıq istehsal etmək və dövlətə satmaq məqsədilə mövcud ehtiyat mənbələrindən maksimum istifadə olunması uğrunda Neftçala rayonu pambıqçılarının təşəbbüsü ilə başlanmış sosializm yarışının gedişini geniş işıqlandırsınlar.

*** *** *** *** *** *** ***

Ümumilli lider H.Əliyevin 1979-cu il mayın 30-da Neftçala rayonuna etdiyi tarixi səfər, bu gün də neftçalalıların xatirələrində ən maraqlı və yaddaqalan anlarla xatırlanır. O günlərin xoş təəsüratlarının hələ uzun müddət yaşayacağını söyləyən əhali, rayonda aparılmış abadlıq-quruculuq işlərində və kənd təsərrüfatının sürətli inkişafında məhz Ulu Öndərin gərgin əməyi ilə fəxr edir və bu siyasəti xalqımızın həyat şəraitinin yaxşılaşdırılmasında irəliyə doğru atılan uğurlu bir addım hesab edirlər.

II fəsil

23 avqust 2007-ci il. Azərbaycan Prezidenti İlham Əliyevin Neftçalaya səfəri

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsi daxilində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Neftçala rayonuna səfər etdi. Ulu öndər, Heydər Əliyevin 1979-cu il 30 may tarixli səfərindən 28 il 3 ay sonra, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin Neftçalaya gəlişi rayon əhalisi tərəfindən sevinclə qarşılandı.

Dövlət başçısının Neftçala rayonuna səfəri Neftçala rayon icra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivinin təsisçiliyi ilə dərc olunan «Gündoğar» ictimai-siyasi qəzetinin 01 sentyabr 2007-ci il № 17-18 (6300) saylı xüsusi buraxılışında geniş şərh edilmişdir. Qəzetin 2-ci səhifəsində **«Təntənəli qarşılanma»** sərlövhəli yazı maraqlı nüansları ilə diqqəti cəlb edir. Belə ki, məqalədə Prezidentin 2003-cü il seçkilərindən sonra ölkədəki abadlıq-quruculuq və iqtisadi inkişaf strategiyasının ana xətti bir daha sadalanır.

TƏNTƏNƏLİ QARŞILANMA

2003-cü ilin prezident seçkilərindən illər keçsə də o həlledici günlər yaxşı yadımızdadır. Seçkilər ərəfəsində iqtidar quruculuq işləri ilə məşğul olub xalqın rəğbətini qazananda müxalifət ara qarışdırmaqla, xaricdə özünə havadarlar axtarmaqla məşğul idi. Onlar unudurdular ki, prezidenti xarici dövlətlərin başçıları deyil, ölkənin vətəndaşları olan xalq seçir.

Həmin ərəfədə respublikanın Baş Naziri vəzifəsini daşıyan prezidentliyə namizəd cənab İlham Əliyev respublikanın rayonlarını gəzir, insanlarla görüşür, onları dinləyir, gələcək planlarını açıqlayırdı. Elə buna görə, möhtərəm İlham Əliyev hər yerdə böyük sevinclə, ehtiramla qarşılanırdı. İnsanlar ona ümid, inam bəsləyirdilər. Möhtərəm İlham Əliyev bu inamı özünün işgüzarlığı, bacarığı, təşkilatçılığı və digər ali keyfiyyətləri ilə qazanmışdı.

2003-cü ilin oktyabrında cənab İlham Əliyev rayonumuzda oldu. Xıllı nərə balıqartırma zavodunun təntənəli açılış mərasimində iştirak etdi. O gün sözün əsil mənasında rayonumuzda bayram sevinci yaşanırdı. Doğma Neftçalada MDB ölkələrində analoqu olmayan, müasir standartlara cavab verən gözəl bir müəssisə tikilmişdi. Onlarla, yüzlərlə insan bu müəssisədə çalışacaqdılar. Üstəlik möhtərəm İlham Əliyev kimi işıqlı zəka sahibi onların görüşünə gəlmişdi. Bu, doğrudan da əlamətdar, yaddaqalan bir gün idi. Cənab Baş Nazirin dərin məzmunlu nitqi ürəklərdəki işığı, ümidi bir daha artırdı. İnsanlar rahat nəfəs aldılar. Deməli, prezidentliyə namizəd cənab İlham Əliyev seçilsə Azərbaycanı bəlalardan xilas edən, onun müstəqilliyini əbədi edən, ölkəni xoşbəxt sabaha aparan dahi rəhbərin yolu davam edəcək. Elə buna görə də seçki günü neftçalalılar mütəşəkkil şəkildə məntəqələrə gələrək Heydər Əliyev siyasi məktəbinin layiqli varisinə – cənab İlham Əliyevə səs verdilər, ona inandıqlarını, etimad göstərdiklərini əyani şəkildə nümayiş etdirdilər.

Beləliklə, çoxluğun qələbəsi ilə möhtərəm İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ötən illər göstərdi ki, xalq seçimində yanılmayıb. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev yoluna sadiq qaldı, onu yeni təfəkkürlə, müasir beynəlxalq şəraitə uyğun şəkildə layiqincə

davam etdirdi. Bu müddətdə respublikamızın paytaxtı Bakı şəhərində, regionlarda çox böyük quruculuq-abadlıq işləri görülüb. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz ixrac boru kəmərlərinin istifadəyə verilməsi ölkəmizin, xalqımızın həyatında mühüm hadisələrdir. Azərbaycana gələn sərmayə axını abadlıq, quruculuq işlərini genişləndirməklə yanaşı qeyri-neft sektorunun inkişafı üçün də gözəl şərait yaradır. Yaxın vaxtlarda Bakı-Axalkalaki-Qars dəmir yolu layihəsi də reallaşmışdır. Ölkəmizi Avropa ilə, uzaq Çinlə birləşdirəcək bu yol respublikamıza təkcə iqtisadi deyil, həm də siyasi dividentlər qazandıracaqdır.

Ötən dörd ildə xalqın maddi və mənəvi rifah halının durmadan yüksəldilməsi istiqamətində görülən ardıcıl tədbirlər – yeni iş yerlərinin yaradılması, əmək haqlarının, pensiya və müavinətlərin artırılması, müasir stadartlara cavab verən çoxlu məktəblərin, səhiyyə müəssisələrinin tikilməsi, mədəniyyət obyektlərinin yenidən qurulması, yolların bərpası və digər istiqamətlərdə görülən nəhəng quruculuq işləri bir daha əyani şəkildə sübut edir ki, Heydər Əliyev yolu haqq yoludur. Bu yolla respublikamız dünyanın iqtisadi güc mərkəzlərindən birinə çevrilir, xalqımız xoşbəxt və firavan günlərə qovuşur.

Bu yüksəlişi, inkişafı doğma Neftçalada da aydın şəkildə görürük. Ötən illər ərzində burada az iş görülməyib. 2006-cı ilin ikinci yarısından sonra bu işlərin daha da genişlənməsi, yeni vüsət alması rayonumuzun simasını xeyli dərəcədə dəyişmiş, ona yeni yaraşıq, gözəllik vermişdir. Bu isə öz növbəsində rayon sakinlərinin əhval-ruhiyyəsini yüksəltmiş, onlara böyük sevinc, fərəh bəxş etmişdir.

… Həmin gün əllərində ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin portretlərini, Azərbaycanın dövlət bayrağını, ümummilli lider Heydər Əliyevin müdrik

kəlamlarını tutaraq dahi rəhbərin adını daşıyan meydana toplaşan, küçələrə çıxan on minlərlə neftçalalılar da məhz bu əhval-ruhiyyədə idilər. Sevimli Prezidentlərini – əziz İlham Əliyevi və onun xanımını – Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanı böyük sevgilərlə qarşılayırdılar. Özünün qeyri-adi günlərindən birini yaşayan Neftçala sözün əsil mənasında bayram libasına bürünmüşdü.

Saat 9:40-da Azərabaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva meydana daxil oldular. Neftçalalılar öz sevimli Prezidentlərini və çox hörmətli Mehriban xanımı sürəkli alqışlarla qarşıladılar.

*** *** *** *** *** *** ***

Ölkənin kütləvi-informasiya vasitələri (KİV) prezidentin bu səfərini çox zəngin materiallarla işıqlandırmış və ictimaiyyətə maraqlı məlumatlar çatdırmışlar. «Xalq qəzeti»nin 24 avqust 2007-ci il, cümə günündəki № 188 (25 658) sayında **«Azərbaycan Prezidenti İlham Əliyevin Neftçala rayonuna səfəri – Heydər Əliyev muzeyinin açılış mərasimi»** başlığı altında yazı dərc olunmuşdur. Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) yaydığı bu materialı təqdim edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NEFTÇALA RAYONUNA SƏFƏRİ – HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞ MƏRASİMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Neftçala rayonuna gəlmişdir.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rayon sakinləri böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar. Onların əllərində ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayrağı, ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar var idi.

Dövlətimizin başçısı və xanımı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək gül qoydular.

Məlumat verildi ki, ümummilli lider H.Əliyevin adını daşıyan bu abad və müasir park cari ilin əvvəlində salınmışdır. Parkın ərazisi 7000 kvadrat metrdir. Burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Bu parkın yanında isə daha bir istirahət guşəsi – Neftçilər parkı salınmışdır. Ulu öndərin heykəlinin hündürlüyü postamentlə birlikdə 6,4 metrdir.

Sonra Prezident İlham Əliyev Neftçalada Heydər Əliyev muzeyi ilə tanış oldu. Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlət başçısına bildirildi ki, tikintisinə 2006-cı ilin oktyabrında başlanmış muzey bu ilin fevralında istifadəyə verilmişdir. Ancaq rəsmi açılış bu gün keçirilir. Muzey bir ekspozisiya zalından, 14 fotostenddən, 10 vitrindən ibarətdir. Fotostendlərdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid şəkillər, vitrinlərdə isə kitablar və sənədlər

nümayiş etdirilir.

Muzeydə həmçinin Prezident İlham Əliyevin fəaliyyətini, ölkəmizin, o cümlədən Neftçalanın sosial-iqtisadi inkişafını əks etdirən kitablar və digər materiallar toplanmışdır.

Prezident İlham Əliyev muzeyin **«Xatirə kitabı»**na öz ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin rəhbəri Neftçala şəhərindəki Heydər Əliyev parkında rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Görüşü Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov açdı.

- Möhtərəm Cənab Prezident!

Bu gün neftçalalıların sevincinin həddi-hüdudu yoxdur. Bizim əsil iftixar və güvənc yerimizə çevrilmiş ümummilli liderimiz Heydər Əliyevin abidə kompleksi və muzeyi qarşısında Sizi salamlayır və Sizə hesabat veririk. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf ölkənin hər bir bölgəsində olduğu kimi, Neftçala rayonunda da uğurla davam edir. Böyük iftixar və fərəh hissi ilə Sizə məlumat verirəm ki, ölkənin ahəngdar inkişafını uğurla təmin edən, dəqiq hesablanmış regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Neftçala rayonu üzrə həlli nəzərdə tutulmuş 16 tədbirin hamısı müvəffəqiyyətlə yerinə yetirilmişdir. Bu Sizin ardıcıl surətdə apardığınız siyasətin təntənəsi və rayonumuza göstərdiyiniz qayğının bəhrəsidir.

Magistral yollardan kənarda yerləşən Neftçala rayonu indi yeni inkişaf dövrünə qədəm qoymuş, öz simasını dəyişərək abad bir diyara çevrilmişdir. Son illər rayonda kənd təsərrüfatı, səneye istehsalı artmış, 44 yeni müəssisə yaradılmış, 769 fiziki şəxs sahibkarlıq fəaliyyətinə başlamış, 6131 yeni iş yeri açılmışdır ki, onlardan da 2816-sı daimi iş yerləridir. Keçmiş

sovetlər məkanında yeganə olan, uzun illər fəaliyyətsiz qalmış Neftçala Yod-Brom zavodu sahibkarlığın inkişafına verdiyiniz hərtərəfli dəstək nəticəsində qısa müddətdə yenidən qurularaq işə salınmış, məhsul istehsalına başlanılmışdır. Zavodun fəaliyyəti tam bərpa edildikdən sonra orada yenidən 500 ton yod istehsal ediləcək, 500 nəfər işlə təmin olunacaqdır. Son illər istifadəyə verilmiş nərə balıqartırma zavodunda axırıncı bir ildə 8 milyon 250 min balıq körpəsi yetişdirilərək Xəzər dənizinə buraxılmışdır. Zavodun balıq konservi istehsal edən sahələrinin istifadəyə verilməsi üçün də tədbirlər nəzərdə tutulur.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində rayonun iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatında məhsul istehsalı əvvəlki ilə nisbətən 18% artmışdır. Sizin aqrar sahədə ardıcıl həyata keçirtdiyiniz tədbirlər növbəti illərdə artımın saxlanılacağına ən etibarlı təminatdır. Kənd təsrrüfatı məhsulları istehsalatçılarına dövlət dəstəyi haqqında 2007-ci il 23 yanvar tarixli sərəncamınız bu sahədə çalışanlara böyük maliyyə dəstəyi olmuş, aqrar sahənin inkişafına geniş imkanlar açmışdır. 24 min nəfər əhalisi, 18 min hektar əkin sahəsi olan «Xol zonası» adlanan ərazinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda nəzərdə tutulmuş, uzunluğu 25 kilometr, ümumi dəyəri 31 milyon manat olan Neftçala magistral su kanalının tikintisinə Sizin qayğınız, yaxından köməyiniz nəticəsində ötən illərin axırlarında başlanılmışdır.

Kənd adamlarının böyük sevincinə və razılığına səbəb olan həmin kanalın tikintisində işlər bu gün sürətlə davam etdirilir. Yeni kanal tam işə salındıqdan sonra ərazidə yaşayan əhalinin həyat tərzi və güzəranı daha da yaxşılaşacaq, kənd təsərrüfatı

məhsullarının istehsalı sürətlə artacaqdır.

Möhtərəm cənab Prezident, bilavasitə tövsiyəniz və tapşırığınız əsasında rayonda abadlıq və quruculuq işləri geniş vüsət almışdır. Sizin göstərişiniz əsasında ayrılmış vəsait hesabına küçə və yollara 70 min kvadrat metrdən çox asfalt, səkilərə 9 min kvadrat metrdən çox üzlük piltə döşənmiş, yol kənarlarında 3 kilometrdən artıq məsafədə hasarlar çəkilmiş, yaşayış binalarının fasadları təzələnmiş, 5 kilometrlik məsafədə yeni işıqlandırma sistemi quraşdırılmışdır. Qısa müddət ərzində şəhərdə 3 yeni bağ salınmış, sahəsi 3 hektardan çox olan Hüseyn Cavid parkı əsaslı təmir edilərək neftçalalıların istifadəsinə verilmişdir.

Ötən dövrdə şəhərin su təsərüfatı və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində də xeyli iş görülmüşdür.

Sizin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, çox hörmətli Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində son iki ildə 3 orta məktəb binası, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 24 mənzilli yaşayış binası tikilib istifadəyə verilmiş, rayon mədəniyyət və incəsənət sarayı, şahmat məktəbi əsaslı təmir olunmuşdur. Cari ildə Qarabağ müharibəsi əlilləri və şəhid ailləri üçün 24 mənzilli daha bir yaşayış binasının tikintisinə başlanılmışdır. Hazırda rayonumuzun 8 orta məktəbində əsaslı təmir işləri davam etdirilir.

Hörmətli cənab Prezident, məlumat verim ki, qəza vəziyətində olan məktəblərin əsaslı təmir edilməsi ilə bağlı vəsaitin ayrılması barədə imzaladığınız sərəncamdan dərhal sonra Neftçala şəhər 2 nömrəli orta məktəbinin təmirinə başlanılmış və hazırda işlər sürətlə davam etdirilir. İcazə verin, rayonumuzun təhsil sahəsinə göstərdiyiniz qayğıya görə

neftçalalıların minnətdarlığını, rəğbətini və məhəbbətini Sizə çatdırım.

Möhtrəm cənab Prezident, fürsətdən istifadə edərək əhalimizi daha çox narahat edən bir problemi Sizin yüksək diqqətinizə çatdırım. Hələ keçən əsrin 50-ci illərində rayonun ərazisindəki quyulardan çıxan səmt qazı tənzimlənmədən, təmizlənmədən və təzyiqi artırılmadan birbaşa borulara vurularaq əhaliyə verilmişdir. Eyni zamanda, 18 kilometr uzunluğu olan yeraltı xəttin 13 kilometrlik hissəsinin borularının nasazlığı ucbatından qazın çox hissəsi uzun illər ərzində itkiyə gedir. «Azəriqaz» Səhmdar Cəmiyyəti tərəfindən bu sahədə müəyyən işlər görülsə də, həmin boru xəttinin dəyişdirilməsinə, eyni zamanda qaz yatağına yaxın yaşayış məntəqələrinin qazlaşdırılmasına böyük ehtiyac duyulur.

Möhtərəm cənab Prezident, Sizin bölgələrə səfərləriniz, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına şəxsən nəzarət etməyiniz, sahibkarlığın inkişafı, işsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması, iqtisadi və sosial layihələrin reallaşdırılması sahəsində gördüyünüz tədbirlər Neftçala rayonunun da sürətli inkişafına təkan vermişdir. Hər bir neftçalalı bu inkişafı bu gün öz gündəlik həyatında hiss edir və buna görə də Sizə minnətdardır.

Sizin rayonumuza bu günkü tarixi səfəriniz də qüvvəmizi qat-qat artırır, bizi yeni uğurlara ruhlandırır. Bu iftixar və fəxr dolu anları biz neftçalalılara bəxş etdiyinizə görə, Sizə hədsiz minnətdarlığımızı bildirir və Neftçalanın bütün əhalisi adından Sizi, möhtərəm cənab Prezident, bir daha əmin edirəm ki, qarşımıza qoyduğunuz bütün vəzifələrin öhdsindən layiqincə gələcək, verdiyiniz tapşırıqları çox böyük məsuliyyətlə yerinə yetirəcəyik.

*** *** *** *** *** *** ***

«Xalq qəzeti»nin həmin sayında **«Dünyada ən sürətli inkişaf edən iqtisadiyyat məhz Azərbaycandadır»** başlığı altında Neftçala rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə Prezident İlham Əliyevin geniş nitqi verilib.

DÜNYADA ƏN SÜRƏTLİ İNKİŞAF EDƏN İQTİSADİYYAT MƏHZ AZƏRBAYCANDADIR

- Əziz neftçalalılar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Heydər Əliyev muzeyinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Muzeydə əks olunan eksponatlar Ulu öndərin həyat və fəaliyyətini göstərir. Həm 1970-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə, həm də müstəqillik dövründə ulu öndər Heydər Əliyev həmişə öz xalqına sədaqətlə xidmət etmişdir. O illərdə və 1990-cı illərdə Azərbaycanın hərtərəfli inkişafı üçün, iqtisadi və siyasi potensialının qaldırılması üçün əlindən gələni əsirgəmirdi. 1979-cu ildə Heydər Əliyevin Neftçalaya səfəri də muzeydə xüsusi yer tutur. Rayonun o vaxtkı inkişafına çox böyük diqqət göstərilirdi. Burada böyük quruculuq-abadlıq işləri aparılırdı, sənaye müəssisələri, kənd təsərrüfatı inkişaf edirdi.

Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində baş vermiş xoşagəlməz proseslər ölkəmizə, o cümlədən Neftçalaya da böyük ziyan vurmuşdur. O vaxt Azərbaycan faktiki olaraq öz iqtisadi gücünü itirmişdi. Müəssislər dayanmışdı, kənd təsərrüfatı tənəzzül edirdi, insanların həyat səviyyəsi gündən-günə pisləşirdi. Ölkəmizin, ümumiyyətlə müstəqil ölkə kimi yaşaması sual altında idi. Biz o illəri çox yaxşı xatırlayırıq.

Müstəqilliyimizin ilk illəri əfsuslar olsun ki, Azrbaycanda çox ağır şəraitdə keçdi. Bunun nəticəsində də ölkəmizin torpaqları işğal olundu, vətəndaş qarşıdurması baş verdi. Bütövlükdə Azərbaycanın iqtisadi və siyasi potensialı çox böyük dərəcədə aşağı düşdü. Amma, baxın, bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Bu gün Ulu öndərin zəhməti və fəaliyyəti

nəticəsində Azərbaycan çox sürətlə inkişaf edir.

Bu inkişafın təməli 1990-cı illərin ortlarında qoyulmuşdur. 1993-cü ildən başlayaraq 2003-cü ilə qədər 10 il ərzində Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz o ağır, çətin şəraitdən şərəflə çıxa bilmişdir, öz siyasi potensialını gücləndirmişdir. İqtisadiyyatda başlanmış islahatlar insanların həyat səviyyəsinə böyük dərəcədə müsbət təsir göstərmişdir. Bu gün Azərbaycan beynəlxalq miqyasda çox önəmli bir ölkəyə çevrilmişdir.

Bizim təşəbbüslərimiz, irəli sürdüyümüz təkliflər nəinki Azərbaycana yeni imkanlar yaradır, həm də beynəlxalq münasibətlərə öz təsirini göstərir. Biz bölgədə aparıcı dövlətə çevrilmişik. Bu artıq reallıqdır. Reallıq hamı tərəfindən qəbul olunub. Bizim qərarlarımız, bizim işlərimiz bütün bölgəyə öz təsirini göstərir. Biz də istəyirik ki, Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin. Bizim imkanlarımız daha da artsın, siyasi çəkimiz artsın, beynəlxalq müstəvidə istədiyimizə nail ola bilək, öz doğma torpaqlarımızı işğalçılardan azad edə bilək və Azərbaycan xalqının normal, yaxşı yaşamasını təmin edə bilək. Bunu etmək üçün Azərbaycan güclənməlidir. Bu proses artıq baş verir.

Mən bayaq qeyd etdim ki, dünyada ən sürətlə inkişaf edən iqtisadiyat məhz Azərbaycandadır.

3 il ərzində Azərbaycan iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artıb. Bu, bizə imkan verir ki, büdcəmiz də artsın. Əgər bir neçə ilin statistikasına nəzər salsaq görərik ki, cəmi 3-4 il ərzində bizim büdcəmiz 1 milyard dollardan indi 8 milyard dollara qalxıbdır. Bu o deməkdir ki, xərclər artıb, sosial infrastrukturun inkişafına daha da böyük diqqət göstərilir, böyük infrastruktur layihələri həyata keçirilir. Maaşlar və pensiyalar vaxtaşırı qaldırılır. Məktəblər, xəstəxanalar tikilir. Yəni, bütün bunları etmək üçün iqtisadi güc lazımdır, iqtisadi potensial lazımdır.

Bizi ən çox gücləndirən yenə də Ulu öndərin neft strategiyası olmuşdur. Onun təşəbbüsü ilə başlanmış və uğurla icra edilən Azərbaycanın neft strategiyası bizim iqtisadi gücümüzü böyük dərəcədə artırdı, eyni zamanda siyasi gücümüzü də artırdı.

Bu gün Azərbaycan bölgədə gedən proseslərdə çox fəal iştirak edir, öz neft strategiyasını Azərbaycan xalqının milli maraqlarına yönəldir. Bizim milli maraqlarımız hər şeydən üstün olmalıdır. Bu belə də var.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Neft bizim əsas sərvətimizdir və bu, uzun illər bundan sonra da belə olacaqdır. Əvvəllər, ölkəmiz müstəqil olmayan dövrdə bizim milli sərvətimiz ümumi Sovet İttifaqının inkişafına xidmət edirdi. İndi isə biz bu sərvətin sahibləriyik. Biz bu sərvətdən istifadə edib öz ölkəmizi inkişaf etdiririk, öz xalqımızın rifah halını yaxşılaşdırırıq. Uzun illər bundan sonra da bu, belə olacaq. Bu bizim iqtisadiyyatmızın aparıcı sahəsidir. Amma bizim istəyimiz odur ki, iqtisadiyyatın başqa sahələri də inkişaf etsin. Kənd təsərrüfatı inkişaf etsin, Azərbaycanda güclü sənaye potensialı yaradılsın, yeni müəssisələr tikilsin, insanlar işlə təmin olunsunlar. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas vəzifəsi bundan ibarətdir.

Mən çox şadam ki, keçən təxminən 4 il ərzində nəzərdə tutulmuş bütün proqramlar həyatda öz əksini tapır. Azərbaycanda 570 mindən çox yeni iş yeri açılmışdır. Mən xatırlayıram, 2003-cü ilin prezident seçkiləri ərəfəsində bəyan edirdim ki, növbəti 5 ildə Azərbaycanda 600 min yeni iş yeri açılacaqdır. Bu gün biz bunun nəticələrini görürük. Mən xatırlayıram, o vaxt, 2003-cü ildə Neftçala rayonuna da səfər etmişdim. Burada, Xıllı qəsəbəsində balıqartırma zavodunun açılışında iştirak etmişdim, insanlarla görüşmüşdüm. Mənə verilən o dəstək, o cümlədən

Neftçalada hiss etdiyim o dəstək mənə əlavə güc verir. Mən də bundan istifadə edirəm ki, doğma xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hər bir rayonunun, hər bir qəsəbəsinin, hər bir kəndinin problemi öz həllini tapsın.

İcra hakimiyyətinin başçısı bu gün qeyd etdi ki, Neftçala magistral yollardan kənarda yerləşir. Amma bu o demək deyil ki, buraya diqqət az olmalıdır, əksinə buraya diqqət daha da çox olmalıdır. Burada gedən proseslərə daha da böyük dəstək verilməlidir. Neftçalada gedən abadlıq-quruculuq işləri, rayonun inkişafındakı müsbət dəyişikliklər məni sevindirir.

Bildiyiniz kimi, bu yaxınlarda Neftçalanın inkişafına vəsait ayrılmışdır. O vəsaitdən istifadə olundu, yeni parklar salındı, yeni yollar çəkildi. Bundan sonra da bu vəsaitin ayrılmasında problem olmayacaq. İndi Azərbaycanın iqtisadi gücü bizə imkan verir ki, istədiyimiz məsələni həll edək. Əsas məsələ problemləri düzgün təhlil etmək, onların həlli yollarını müəyyən etmək, bunun maddi təminatını təşkil etməkdir. Yerlərdə yerli icra orqanları, fəal insanlar bunu icra etməlidirlər. Belə olan halda Azərbaycanın, ölkəmizin qarşısında duran problemlər öz həllini tapacaqdır.

Düzdür, işsizliklə bağlı mübarizədə böyük uğurlar əldə etmişik, amma işsizlik tam şəkildə aradan qaldırılmayıb. Yoxsulluq 3 il ərzində 49 faizdən 20 faizə düşübdür. Bu çox böyük göstəricidir. Amma bizi tam qane edə bilməz. Halbuki, hətta inkişaf etmiş ölkələrdə əhalinin müəyyən hissəsi yoxsulluq şəraitində yaşayır. Amma mən istəyirəm ki, Azərbaycanda yoxsul təbəqə olmasın, mən istəyirəm ki, işsiz olmasın, işləmək istəyən işlə təmin olunsun, maaşlar yüksək olsun, pensiyalar imkan versin ki, insanlar normal yaşasınlar. Mən bunu istəyirəm və biz bu istiqamətdə gedirik. Hələ ki, bu günki sosial məsələlərin həlli məni tam şəkildə qane edə bilməz. Amma əgər dinamikaya

baxsaq, görərik ki, son 3-4 il ərzində böyük bir yol keçmişik. Növbəti illərdə, ildən-ilə minimum əmək haqları qaldırılacaq, pensiyalar qaldırılacaq, büdcədən maliyyələşən bütün təşkilatlarda çalışan insanların əmək haqları qaldırılacaq ki, büdcə təşkilatlarında işləyənlər tam şəkildə təmin olunsunlar.

O ki qaldı özəl sektora, burada da biz lazımi imkanlar yaradırıq. Hər il Azərbaycan büdcəsindən sahibkarlara 100 milyon dollar dəyərində kreditlər verilir və bu öz növbəsində yeni iş yerlərinin, müəssisələrin yaradılmasına gətirib çıxarır. Mən mütəmadi qaydada sahibkarlarla görüşürəm, onlara öz siyasi dəstəyimi verirəm. Yerli icra orqanlarına tapşırıq verirəm ki, onlara kömək olsunlar, onları dəstəkləsinlər.

Bu gün verilən məlumata görə, Neftçalada uzun illər fəaliyyətsiz qalmış yod-brom zavodu da fəaliyyətə başlamışdır. Bu böyük bir müəssisədir, orada yüzlərlə insan çalışır və bundan sonra da çalışacaqdır. Orada istehsal olunan məhsul dünya bazarlarına çıxarılacaq və Neftçala da bundan xeyir götürəcək. Bununla bərabər, mərkəzləşmiş büdcədən ayrılan xərclər ildən-ilə artacaqdır ki, bütün məsələlər öz həllini tapsın.

Ona görə sahibkarlığın inkişafı bundan sonra da sürətlə getməlidir, kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görülür, texnika alınır, aqrotexservislər yaradılır, «Aqrolizinq» fəaliyyət göstərir, fermerlərə maddi yardım göstərilir. Yəni biz çalışırıq ki, bütün sahələrdə qeyri-neft sektorunun inkişafına müxtəlif yollarla böyük təkan verək.

Mən əminəm ki, növbəti illərdə bu ardıcıl siyasətin, iqtisadi islahatların dərinləşməsi nəticəsində biz istədiyimizə nail olacağıq. Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Mən istəyirəm ki, Azərbaycan sözün əsl mənasında inkişaf etmiş ölkələrin sırasına daxil olsun. İstəyirəm insanlar yaxşı yaşasınlar, yaxşı maaş alsınlar, uşaqlar yaxşı məktəblərdə oxusunlar,

xəstələr yaxşı tibbi xidmətə malik olsunlar, yollar abadlaşsın, şəhərlər gözəlləşsin, insanların üzü gülsün və Azərbaycan irəliyə getsin. Budur mənim arzularım!

Əminəm ki, siz bu arzuları bölüşürsünüz. Biz doğma Azərbaycanımızın inkişafı üçün bundan sonra da birlikdə işləyəcəyik, əlimizdən gələni edəcəyik və Azərbaycanı qüdrətli dövlətə çevirəcəyik. Sağ olun!

Sonra Prezident İlham Əliyev sakinlərlə görüşüb səmimiyyətlə söhbət etdi. Neftçalalılar dövlətimizin başçısına təşəkkürlərini bildirdilər, ölkmizin sosial-iqtisadi inkişafı sahəsində qazanılan uğurlardan məmnunluqlarını ifadə etdilər. Onlar xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərini xatırlayaraq, Ulu öndərin müasir Azərbaycanın inkişafı üçün gördüyü işləri yüksək dəyərləndirdilər, onun apardığı siyasətin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırdılar. Neftçalalılar Prezident İlham Əliyevin bütün fəaliyyətini ürəkdən dəstəklədiklərini bildirdilər.

«XALQ BANK»IN NEFTÇALA FİLİALI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 23-də Neftçala şəhərində «Xalq Bank»ın filialı ilə tanış olmuşdur. Prezident İlham Əliyev buradakı iş şəraiti ilə maraqlanmış, istifadə olunan müasir avadanlığa baxmışdır.

Prezidentə «Xalq bank»ın Sumqayıt, Zaqatala və Neftçalada filiallarının, Naxçıvanda isə şöbəsinin olması barədə məlumat verilmişdir. Bildirilmişdir ki, filialda həm hüquqi, həm də fiziki şəxslərə müxtəlif bank xidmətləri göstərilir. Qeyd edilmişdir ki, müştərilər bankın köməyi ilə dünyanın yüzə yaxın ölkəsinə, o cümlədən MDB dövlətlərinə və

əksinə, qısa müddətə pul köçürmələri göndərə və qəbul edə bilərlər. Burada əmanətin müxtəlif növlərindən, depozit, bankomat, valyuta mübadiləsi və digər bank xidmətlərindən istifadə etmək üçün hər cür imkan vardır.

HEYDƏR ƏLİYEV FONDU NEFTÇALA ŞƏHƏR İNTERNAT MƏKTƏBİNİ ƏSASLI TƏMİR ETDİRƏCƏKDİR

Daha sonra dövlət başçısı İlham Əliyev Mehman Səfərov adına Neftçala şəhər internat məktəbi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, bu məktəbin əsası 1960-cı ildə qoyulmuşdur və indiyədək burada heç bir təmir işi aparılmamışdır. Əsaslı təmirə ehtiyac duyulduğu bu təhsil ocağı 280 yerlik olsa da, hazırda burada 313 şagird təhsil alır. Onların təlim və tərbiyəsi ilə 75 müəllim məşğul olur. İnternat məktəbində əsasən imkansız ailələrin uşaqları təhsil alırlar.

Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birlikdə internat məktəbinin sinif otaqlarını, yeməkxanasını, yataqxanasını gəzdi. Bildirildi ki, bu məktəbin əsaslı təmirini Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Təmirdən sonra burada şagirdlərin təhsili və yaşaması üçün müasir şərait yaradılacaq və məktəb kompyüterlərlə təmin olunacaqdır.

AZƏRBAYCAN YOD İSTEHSALINA GÖRƏ, DÜNYADA DÖRDÜNCÜ YERDƏ OLACAQDIR

Azərbaycan Prezidenti İlham Əliyev Neftçala rayonunun «Azər-Yod» Məhdud Məsuliyyətli Cəmiyyətin eyniadlı müəssisəsində oldu.

Müəssisənin kollektivi dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev müəssisənin baş planı, Xıllı və Neftçala yataqlarının əsas göstəriciləri ilə tanış oldu, istehsal prosesinə, müxtəlif markalı hazır məhsulların nümunlərinə, fəaliyyət sertifikatlarına baxdı.

Məlumat verildi ki, Neftçala rayonunda yod istehsalına 1931-ci ildə başlanılmışdır. Köhnə sahə Həsənabad qəsəbəsinin yaxınlığında yerləşir. Əvvəllər yodu kömür desorbsiyası üsulu ilə alırdılar. Lakin kükürd turşusunun tətbiqindən sonra radiaktiv duzlar əmələ gəldiyi üçün bu texnologiya ötən əsrin 70-ci illərində qadağan edilmişdir. Yeni zavodun tikintisi haqqında qərar qəbul ediləndən 1994-cü ilə, yəni müəssisə fəaliyətini dayandırana qədər yod ion mübadiləsi texnologiyası ilə istehsal olunurdu.

Bildirildi ki, müəssisənin ərazisi 17 hektardır. Yataqların işlənilməsi üçün ayrılmış ərazi 850 hektardır. Neftçala və Xıllı yataqlarında kəşfiyyat işləri aparılmış, dərinliyi 2200 metr olan təxminən 200 quyu qazılmışdır. İstehsal gücü ildə 500 ton olan zavoda gündə 40 000 kub metr su vermək üçün 140-dək quyunun işə salınması planlaşdırılır. Hazırda 200 nəfərin çalışdığı müəssisə tam gücü ilə işə düşəndən sonra onların sayı 500-ə çatdırılacaq.

Müqayisə üçün xüsusi vurğulandı ki, hava desorbsiyası üsulunun Neftçala sahəsində tətbiqi nadir hadisədir. Çünki həmin üsul ilk dəfə soyuq suda, turşusuz tətbiq edilmiş və bu zaman xammaldan 94%-dən çox yod ayrılmışdır. Krasnodar zavodunda bu göstərici 85%-dir, lakin suyun temperaturu Selsi ilə 70 dərəcəyə çatır. Yaponiya zavodlarında isə xammaldan 90%-dək yod ayrılır, burada termal sudan və turşudan istifadə olunur. Bundan əlavə, zavodda tullantıların təkrar emalı

qurğusunun işə salınması atmosferin çirklənməsinin qarşısını almaqla yanaşı, yod ayrılmasını artırmağa imkan verir.

Dövlətimizin başçısı yataqların bərpası ilə də maraqlandı. Məlumat verildi ki, artıq buraxılış-sazlama işləri başa çatdırılmışdır. İlin sonunadək birinci növbə layihə gücünə çatdırılacaqdır. Avropa Yenidənqurma və İnkişaf Bankı istehsalatın 3-4 xəttini tikmək və yataqları işlətmək üçün 8,5 milyon dollar kredit ayırmağa razılıq vermişdir. Cəmiyyətin nizamnamə kapitalının məbləği 12 milyon dollardır. Bura bütün infrastruktur və alınmış avadanlığın dəyəri daxildir. Bundan əlavə, «Nikoyl» Bankından 3,5 milyon dollar kredit alınmış və artıq xərclənmişdir. Zavod dünya ekoloji standartlarına cavab verir, yod turşusuz üsulla istehsal olunur və burada 94% yüksək səviyyəli yod alınır. Zavodu elektrik enerjisi ilə təmin etmək üçün 8 meqavat gücündə qaz generatoru quraşdırılacaqdır.

Yod tərkibli su ehtiyatlarını nəzərə alaraq, müəssisənin istehsal gücü 1500 tona çatdırıldıqdan sonra Azərbaycan dünya üzrə Çili (12,5 min ton), Yaponiya (7-8 min ton) və ABŞ (1,5 min ton) kimi yod istehsalçılarından sonra dördüncü yerə çıxacaqdır.

Sonra Prezident İlham Əliyev bu cür müəssisələrin əhəmiyyətini vurğuladı, «Azər-Yod» MMC-nin xatirə kitabına ürək sözlərini yazdı.

UŞAQLARIN İNTELLEKTUAL CƏHƏTDƏN HƏRTƏRƏFLİ İNKİŞAFI ÜÇÜN HƏR CÜR ŞƏRAİT YARADILMIŞDIR

Prezident İlham Əliyev Neftçala Şahmat Məktəbi ilə tanış oldu. Məktəbin direktoru İmanbaxış Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, bu məktəb 1987-ci ildə istifadəyə verilmişdir və heç bir təmir işi aparılmadığına görə bina yararsız vəziyyətə düşmüşdü. Hazırda bina yüksək səviyyədə əsaslı təmir olunmuşdur, burada respublika səviyyəli şahmat turnirlərinin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Məktəbdə 12 məşqçi çalışır, 13 müəllim isə kəndlərdə idmanın bu növünü uşaqlara öyrədir. 587 uşağın məşğul olduğu bu məktəbin yetirmələri 10 dəfə respublika çempionu adını qazanmışlar. Onlar, həmçinin Kanada, Braziliya və Avropanın bir sıra ölkələrində keçirilən beynəlxalq yarışlarda iştirak etmişlər. Neftçala şahmat məktəbinin yetirmələri olan Fidan və Fizzə Şirəliyeva bacıları Braziliyada keçirilən yarışda respublikamızı təmsil etmişlər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəblə yaxından tanış oldular, uşaqların şahmat oyununa tamaşa etdilər. Dövlətimizin başçısı əsas və iclas zallarına, kompyüterlə təmin olunmuş şahmat otaqlarına baxdı və bildirdi ki, yeni nəslə diqqət və qayğı bundan sonra da artırılacaqdır. Uşaqların intellektual cəhətdən hərtərəfli inkişaf etmələri üçün şahmatın böyük rolu vardır.

Heydər Əliyev Muzeyinin rəsmi açılışı – 23 avqust 2007-ci il

Muzeyin «Xatirə kitabı»na ürək sözləri – 23 avqust 2007-ci il

Ekspozisiya ilə tanışlıq - 23 avqust 2007-ci il

İctimaiyyət qarşısında alovlu nitq - 23 avqust 2007-ci il

Muzeyin Xatirə albomuna baxarkən -23 avqust 2007-ci il

Rayon yetirməsi, Xalq rəssamı Sakit Məmmədovun əsəri ilə tanışlıq - 23 avqust 2007-ci il

Rəhbərə sədaqət və məhəbbətin təzahürü - 23 avqust 2007-ci il

Gənc şahmatçılar məktəbində - 23 avqust 2007-ci il

Müasir sənaye müəssisəsi – Yod-Brom zavodunda - 23 avqust 2007-ci il



Məqsəd və nəticələrə doğru addımlar - 23 avqust 2007-ci il

Rəhbərin xalqla birliyi - 23 avqust 2007-ci il

Ə.Piriyev adına 2 saylı orta məktəb «Heydər Əliyev Fondu»nun dəstəyi ilə aparılan təmirdən sonra - 23 avqust 2007-ci il

Neftçalanın gözəl guşələrindən biri

Heydər Əliyev muzeyinin ekspozisiyası

Heydər parkı

Dövlətçiliyimizin simvolu ekspozisiyasından fraqment

NEFTÇALA ŞƏHƏR 2 NÖMRƏLİ ORTA MƏKTƏBİ İLƏ TANIŞLIQ

Elə həmin gün Prezident İlham Əliyev Neftçala rayonuna səfərinin sonunda şəhərdəki 1176 şagird yeri olan 2 nömrəli orta məktəbdə aparılan əsaslı təmir işləri ilə maraqlandı.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva bərpa işlərinin layihəsi ilə tanış oldular, məktəbin təmirəqədərki vəziyyətini əks etdirən fotoşəkillərə baxdılar.

Məlumat verildi ki, Təhsil Nazirliyinin sifarişi ilə həyata keçirilən təmir işləri yüksək səviyyədə aparılır. Bu təhsil ocağı dörd korpusdan ibarət olacaqdır. Birinci korpus yeni dərs ilinədək hazır olacaq (2007-ci ilin sentyabrına), burada hər cür şərait yaradılacaqdır.

*** *** *** *** *** *** ***

Prezident İlham Əliyevin Neftçala rayonuna səfəri ölkə mətbuatının səhifələrində geniş yer tutmuş və dərin məzmunlu materiallar çap edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Prezidentin yanında Ali Attestasiya Komissiyasının orqanı olan «Elm qəzeti»nin cümə günü, 24 avqust 2007-ci il, №25-26 (832-833), «Respublika» qəzetinin cümə günü 24 avqust 2007-ci il, №188 (3028), «Azərbaycan» qəzetinin cümə günü 24 avqust 2007-ci il, №188 (4704) saylı buraxılışlarında Prezident İlham Əliyevin geniş nitqi dərc olunub.

*** *** *** *** *** *** ***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Neftçalaya səfərinin xoş nəticələrini rayon ictimaiyyəti çox gözləməli olmadı. Dövlət başçısı rayona səfərindən bir neçə gün sonra rayonun sosial-iqtisadi inkişafına yardım məqsədilə sərəncam imzaladı. «Xalq qəzeti»nin 30 avqust 2007-ci il cümə axşamı, № 193 (25 663) saylı buraxılışında dövlətimizin başçısının imzaladığı bu sərəncam dərc edilmişdir.

Neftçala rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Neftçala rayonunun sosial-iqtisadi inkişafı istiqamətində görülən tədbirlərin həyata keçirilməsi, o cümlədən abadlıq-quruculuq işlərinin sürətləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Neftçala Rayon İcra Hakimiyyətinə 1,0 milyon (bir milyon) manat məbləğində vəsait ayrılsın.

2. «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə birlikdə Neftçala rayonunun təbii qazla təchiz edilməsinin yaxşılaşdırılması üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin ödənilməsini təmin etsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 avqust 2007-ci il

*** *** *** *** *** *** ***

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixində imzaladığı fərmanı ilə təsdiq edilmiş **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»** çərçivəsində Neftçala rayonunda həyata keçirilməli olan bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasında makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi tədbirləri bu rayonda da həyata keçirilir. Bunlar aşağıdakı cədvəldə verilib:

Tədbirin adı	**Tədbirin məqsədi**	**Yerinə yetirilmə müddəti**	**İcraçıları**
Pambıqçılığın və taxılçılığın inkişaf etdirilməsi	Aqrar sektorun inkişaf etdirilməsi, məhsul istehsalının artırılması	2004-2008-ci illər	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Komitəsi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları
Heyvandarlıq, quşçuluq və balıqçılıq məhsulları istehsalının və emalının inkişaf etdirilməsi	Əhalinin ərzaq tələbatının və məşğulluğunun təmin edilməsi	2004-2008-ci illər	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Naziriyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları

Xıllı qəsəbəsində nərə balığı və balıq konservləri istehsal edəcək zavodun tikintisinin başa çatdırılması	Əhalinin balıq məhsullarına olan tələbatının ödənilməsinin yaxşılaşdırılması	2004-2008-ci illər	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları
Neft və qaz hasilatının inkişafının dəstəklənməsi	Sənayenin inkişaf etdirilməsi, məhsul istehsalının artırılması	2004-2008-ci illər	Yanacaq və Energetika Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti
Yod-brom tərkibli sənaye sularından və termal sulardan istifadənin dəstəklənməsi	Rayonun təbii resurslarından istifadənin səmərəsinin artırılması	2004-2008-ci illər	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti

Tikinti materialları (gil, qum, texniki duz və s.) istehsalının inkişafının dəstəklənməsi, yeni tikinti materialları yataqlarının axtarışı və kəşfiyyatının gücləndirilməsi	Rayonun sənaye potensialının gücləndirilməsi və məşğulluğun təmin edilməsi	2004-2008-ci illər	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları
Neftçala rayonunda əlillər və şəhid ailələri üçün yaşayış binalarının inşası	Əlil və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması	2004-2005-ci illər	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, yerli icra hakimiyyəti
«Bala Kür»ün qolunun genişləndirilməsi	Kür çayının daşmasından ətraf ərazilərə vurulan ziyanın qarşısının alınması	2004-2007-ci illər	Meliorasiya və Su Təsərrüfatı Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları

Neftçala balıqartırma zavodunda istehsal ediləcək nərə cinsli körpə balıqların Xəzər dənizinə çıxışının və təbii kürütökmə yerlərinə köçməsinin təmin edilməsi	Əhalinin içməli suya olan tələbatının daha dolğun ödənilməsi	2004-2008-ci illər	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti
80 şagirdlik Xanqışlaq kənd əsas məktəb binasının tikintisi, 4 məktəbdə əsaslı təmir aparılması	Təhsil sisteminin təkmilləşdirilməsi	2004-2007-ci illər	Təhsil Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları

*** *** *** *** *** *** ***

Ulu öndər H.Əliyevin və Cənab Prezident İ.Əliyevin rayonumuza göstərdiyi diqqət və qayğının bariz nümunəsi, rayon ictimaiyyəti arasında geniş əks-səda doğurmuş və səfərdən irəli gələn xoş təəsüratlar bölgəyə səfər edən KİV (kütləvi informasiya vasitələri) nümayəndələri ilə səmimiyyətlə

bölüşdürülmüşdür. «Xalq qəzeti»nin 31 avqust 2007-ci il, cümə günü çap olunan №194 (25 664) sayında qəzetin bölgə müxbiri Əli Nəcəfxanlının **«Neftçala: qəlblərdə ümman döyünür»** sərlövhəli geniş yazısı dərc olunmuşdur. Yazıda, bölgə müxbiri ölkə başçısının rayona etdiyi səfərin yekunlarından irəli gələn uğurlu nəticələrdən söz açır, rayon ictimaiyyətinin xoş təəssüratlarını maraqlı fikirlərlə qələmə alır.

NEFTÇALA: QƏLBLƏRDƏ ÜMMAN DÖYÜNÜR

Ərazisi cənub-şərqi Şirvan və Salyan düzlərinə, qismən də Muğan düzünə düşən, Kürün sağ sahilində şəfəqlər içində sayrışan Neftçala ölkəmizin yaxasında sanki bir ulduz kimi parlayır. Xəritəsinə baxsanız, siz də Neftçalanın Azərbaycan Respublikasının kiçik modelinə bənzədiyini təsdiqləyərsiniz. Birdən-birə dörd rayon – Salyan, Cəlilabad, Masallı və Lənkəran sanki Neftçalanın ətrafında halaya durub, digər tərəfdənsə qocaman Xəzər vüsalına yürüyən Kürə və şair dostumuz Zabil Pərvizin «qarayanız Leyli» adlandırdığı Neftçalaya qoynunu açıb, bir az da obrazlı desək, ayağına baş qoyur.

… Salyan ərazisində, şir heykəllərinin «keşik» çəkdiyi körpüdən hər keçəndə sağa-sola boylanıb ana Kürə baxıram. Burdan Kürün Xəzərə qovuşmasına vur-tut 50-55 kilometr qalır. «Nur qatarı» olan Kür bu məsafəni də şütüyüb qurtarandan sonra mərcan balıqlarıyla bərabər dənizin sularına qarışır. Amma Kür qurtarmır. O baş-bu başı 1500 kilometr olan nəhəng çay əsrlərdir Türkiyənin Qars yaylasından başlayaraq Ərdəhandan, Tbilisidən, Barjomi dərəsindən və Azərbaycanımızın neçə-neçə rayonundan keçərək Neftçaladakı mənsəbinə can atır. Özü də yol boyu sahil sakinlərindən bol balıq payını, elektrik stansiyalarından gür suyunu əsirgəmir. Hələ görün

səxavətli Kürdən nə qədər əraziyə ad payı da düşüb: Kürkənd, Kürdaşı, Kürək, Kürdəmir, Kürqovuşan, Kürqaraqaşlı, Bala Kür, Kürağzı, Kürdili və sair.

Tarixi mənbələrə görə, XIII əsrdə Türküstan çöllərindən Qafqaza gələn Oriyat türk tayfasının bir hissəsi buralarda məskunlaşıb. 1868-ci ilə aid «Cavad qəzasının xəritəsi»ndə iki Oriyat kəndi göstərilib: Böyük Oriyat və Təzə Oriyat. 1873-cü ilin kameral siyahıyaalınmasında isə ərazi bir kənd kimi qeyd olunub. Hazırki Böyük Oriyat müasir bir kənddir…

Bu da Neftçala şəhəri! Yaşayış məntəqəsi kimi altımışdan yuxarı yaşı var. Əvvəllər şəhər tipli «Trest qəsəbəsi» adlanırdı. «Neftçalaneft»in idarələri üçün ilk binalar burada tikilib. Yalnız 50-ci illərdə qəsəbə «Neftçala şəhəri» statusu alıb. Rayonun ilk sürətli inkişafı 70-ci illərə təsadüf edir. Ulu öndər Heydər Əliyev rayonun və şəhərin inkişafına çox böyük diqqət yetirib. Burada geniş quruculuq işləri aparılıb, sənaye və kənd təsərrüfatı inkişaf edib. 1979-cü ilin mayın 30-da Heydər Əliyevin Neftçalaya səfərini rayon sakinləri iftixarla xatırlayırlar. Prezident İlham Əliyevin bu ilin (2007-ci il) avqustun 23-də Neftçalaya səfəri zamanı təntənəli açılışı olan Heydər Əliyev muzeyində ulu öndərin həmin tarixi görüşlərinə aid sənədlər, şəkillər xüsusi yer tutur.

Bu gün «qarayanız Leyli» - Neftçala Azərbaycanın sürətlə inkişaf edən gözəl şəhərlərindən sayılır. Prezident İlham Əliyevin müəllifi olduğu regional inkişaf Dövlət Proqramı üzrə Neftçalada genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilir. Son bir ildə görülən işlər xüsusilə diqqətəlayiqdir. Bunu Neftçalaya səfəri zamanı rayon ictimaiyyəti ilə görüşündə dövlətimizin başçısı xüsusi vurğuladı: **«Neftçalada gedən abadlıq-quruculuq işləri, rayonun inkişafındakı müsbət dəyişikliklər məni sevindirir. Bildiyiniz kimi, bu yaxınlarda**

Neftçalanın inkişafına vəsait ayrılmışdı və o vəsaitdən istifadə olundu, yeni parklar salındı, yeni yollar çəkildi. Bundan sonra da bu vəsaitin ayrılmasında problem olmayacaq. Azərbaycanın iqtisadi gücü bizə imkan verir ki, istədiyimiz məsələni həll edək…»

Prezident İlham Əliyevin Neftçalaya səfərinin və burada görülən işlərə yüksək qiymət verməsinin iftixarını yaşayan rayon sakinlərinin ürəyində ümman döyünür. Rayonun inkişafına diqqətini, qayğısını əsirgəməyən dövlət başçısının pişvazına neftçalalılar kiçikdən-böyüyə hamılıqla çıxmışdırlar. Prezidenti addımbaşı ürəkdən salamlayır, alqışlayır, yüksək qayğıya görə, minnətdarlıqlarını çatdırırdılar. Sakinlər Prezidentlə unudulmaz görüşün xoş təsirindən hədsiz məmnundurlar.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Taleh QARAŞOV:

- Möhtərəm Prezidentimizin xüsusi qayğısı sayəsində üstünə gün düşən Neftçala əsl intibah dövrünü yaşayır. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüş zamanı mən böyük iftixar və fərəh hissi ilə cənab İlham Əliyevə məlumat verdim ki, təməli Ulu öndərimiz tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf ölkənin hər bir bölgəsində olduğu kimi, Neftçalada da uğurla davam etdirilir. Ölkənin ahəngdar inkişafını uğurla təmin edən, dəqiq hesablanmış regional inkişaf Dövlət Proqramında Neftçala rayonu üzrə həlli nəzərdə tutulan 16 tədbirin hamısı müvəfəqiyyətlə yerinə yetirilib. Bu möhtərəm Prezidentimizin ardıcıl surətdə apardığı siyasətin təntənəsi və rayonumuza göstərdiyi qayğının bəhrəsidir.

Son illər rayonda kənd təsərrüfatı, sənaye istehsalı artıb, 44 yeni müəssisə yaradılıb, 800-dək fiziki şəxs sahibkarlıq fəaliyyətinə başlayıb, 6131yeni iş yeri açılıb ki, bunun da yarıya qədəri daimi xarakterlidir. Uzun illər işləməyən Neftçala yodbrom zavodu yenidən qurularaq məhsul istehsalına başlayıb. Burada 500 nəfər işlə təmin olunaraq evinə, ailəsinə ruzi aparacaq. 2003-cü ildə şəxsən cənab İlham Əliyevin iştirakı və xeyir-duası ilə işə salınmış balıqratırma zavodu işləyir, indi balıq konservləri istehsal edən sahələrin istifadəyə verilməsi nəzərdə tutulur. Kənd təsərrüfatında istehsal 18 faiz artıb. Neftçalada 18 000 hektar əkin sahəsi olan, «Xol zonası» adlanan ərazinin su təminatını yaxşılaşdırmaq üçün Dövlət Proqramında nəzərdə tutulmuş 31 milyon manat dəyərində 25 kilometrlik magistral su kanalının tikintisi sürətlə davam edir.

Şəxsən möhtərəm Prezidentimizin göstərişi əsasında ayrılmış vəsait hesabına küçə və yollarımıza 70 min kvadrat metrdən çox asfalt, səkilərə 9 min kvadratmetrdən çox üzlük piltə döşəndiyini, yol kənarlarında 3 kilometrdən artıq məsafədə hasarlar çəkildiyini, 5 klometrlik məsafədə yeni işıqlandırma sistemi quraşdırıldığını, su təsərrüfatı və kanalizasiya sisteminin yenidən qurulduğunu, digər infrastruktur yeniləşmələri aparıldığını dövlət başçısının diqqətinə çatdırıb, bütün bunlara görə sakinlərimizin razılığını ifadə etdim.

Məktəb tikintisi və təmiri, böyüyən nəslə qayğı sahəsində Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı çox hörmətli Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir. Fürsətdən istifadə edərək əhalini narahat edən bir məsələni də Prezidentin nəzərinə çatdırdım. Bu, rayon ərazisindəki quyulardan çıxan səmt qazının yatağa yaxın yaşayış məntəqələrinə verilməsi ilə bağlı idi. İnanırıq ki, problem diqqətsiz qalmayacaq. Çünki 4 illik fəaliyyəti dövründə cənab Prezidentin sosial sahəyə, təchizata dair bütün məsələlər barədə daim konkret əməli göstərişlər verdiyinin, bu sahədə atdığı addımların hər zaman əhalini sevindirdiyinin

canlı şahidləriyik.

Görüşdə də qeyd etdiyim kimi, cənab İlham Əliyevin rayonumuza bu tarixi səfəri qüvvəmizi qat-qat artırıb, bizi yeni uğurlara ruhlandırıb. Prezidentin səfər zamanı söylədiyi fikirləri, tövsiyələri əsil fəaliyyət proqramı kimi qəbul etmişik. Bundan sonra gərək daha böyük səylə çalışaq ki, etimadı layiqincə doğruldaq. Bu gün hər bir neftçalalı məhz belə düşünür…

Neftçalaya növbəti ezamiyyətim Azərbaycan Prezidenti İlham Əliyevin səfərindən sonrakı günlərə təsadüf etdiyindən adamların necə böyük sevinc və fərəh içərisində olduğunu, qürur və iftixar keçirdiyini bir daha gördüm. Öyrəndim ki, rayonun iri sənaye müəssisəsi olan «ANŞAD Petrol» Neft və Qazçıxarma Müştərək Müəssisəsi (MM), «Leqno - Neftçala» MMC, «Xəzər Şirkəti» MMC, balıqçılıq və broyler istehsal sahələri, xidmət sferası yüksək nəticələr qazanır, təchizat getgedə daha da yaxşılaşır. Kənd təsərrüfatı sahəsində irəliləyişə nail olunub. «Aqroservis» filialında texnikanın sayı 62-yə çatdırılıb. Sahibkarlıq fəaliyyəti durmadan genişlənir.

Şəhərin təmiz, səliqəli küçələrini gəzdim. Prezidentin Neftçalada ilk dəfə gəldiyi Heydər Əliyev adına park göz oxşayır. Cəmi bir neçə gün öncə minlərlə şəhər sakini burada ölkə rəhbərini və xanımını gül-çiçəklə, xoş diləklə qarşılayıb. Ulu öndərin möhtəşəm abidəsini ziyarət edən Prezident parka da baxıb və bəyənib. Sonra dövlətimizin başçısı «Heydər Əliyev muzeyi» ilə tanış olub, rəmzi lenti kəsib, muzeyin xatirə kitabına öz ürək sözlərini yazıb.

Şölə İSMAYILOVA, həkim:

- İxtisasca həkim olan Mehriban xanım da öz mehribanlığı ilə qəlbimizə nüfuz elədi. Onun böyüyən nəslə qayğısı misilsizdir. Biz bütün bunları görüş zamanı fəxrlə dilə gətirdik.

Hüseyn HÜSEYNOV, Böyük Vətən müharibəsi veteranı:

- Bəlkə də dünyada belə sadə, mehriban, qayğıkeş dövlət başçısı tapılmaz. Görüşdən o qədər razı qaldıq ki, sözlə deyiləsi deyil. Söhbət zamanı biz ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini yada salaraq, müasir Azərbaycanın inkişafı üçün ulu öndərin gördüyü işləri yüksək dəyərləndirdik, onun apardığı siyasətin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırdıq, layiqli varis olan Prezident İlham Əliyevin bütün fəaliyyətini ürəkdən dəstəklədiyimizi bildirdik. Neftçalada son bir ildə start verilən geniş quruculuq işlərini də təqdir etdiyimizi bildirdik. Doğrudan da, görülən işlərə, abadlaşan şəhər, kənd və qəsəbələrə baxdıqca adam fərəhlənir. Dövlət başçısının Neftçalaya səfər etməsi, burada gedən işləri yüksək qiymətləndirməsi ürəyimizdən oldu.

… Neftçala magistral yoldan kənarda yerləşsə də, buraya qayğı böyükdür. Rayonda gedən quruculuq proseslərinə diqqət yetərincədir. Azərbaycan Prezidenti Neftçalaya səfəri ilə bu yerlərin qədir-qiymətini daha da qaldırdı. Öz diqqət və qayğısı ilə sübut etdi ki, Neftçala heç də gözdən uzaq, könüldən iraq deyil. Rayon yeni inkişaf dövrünə qədəm qoyub və abad bir diyara çevrilməkdədir.

NEFTÇALADAKI HEYDƏR ƏLİYEV MUZEYİ TARİX YAŞADIR

Muzeylər tariximizi yaşadan mədəniyyət mərkəzləri olmaqla keçmişimizi qoruyub gələcəyə çatdırmaqdan ötrü əvəzedilməz sərvətlər mühafizəçisidir. Tarixi abidələr, zəngin maddi mədəniyyət nümunələri ilə yanaşı şəxsiyyətlərin həyat və yaradıcılıq fəlsəfəsini özündə cəmləşdirən muzey ən gözəl elmi təbliğat və maarifləndirmə mənbəyidir. Belələrindən biri, Azərbaycanın cənub bölgəsində tarix yaşadan Neftçala rayonu **«Heydər Əliyev muzeyi»**dir.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin xatirəsinə respublikamızın rayonlarında inşa olunan muzeylər sözün əsil mənasında gələcək nəsillərin yaddaş səlnaməsində böyük cığırlar açacaq. Neftçala rayonunda da yeni fəaliyyətə başlayan **«Heydər Əliyev muzeyi»** ümummilli liderimizin həyat və fəaliyyətini əks etdirən foto-stendlər və kitab materialları ilə zəngindir. Muzey ulu öndərin adını daşıyan **«Heydər parkı»**nın həyətində yerləşir. Ümummilli lider Heydər Əliyevin adını daşıyan bu abad və müasir park 2007-ci ilin əvvəllərində salınmışdır.

«Heydər Əliyev muzeyi»nin ekspozisiyası sadə və olduqca zəngindir. Ulu Öndər, dahi şəxsiyyətin həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən ekspozisiya zalına daxil olarkən sanki Onun mənəvi aləminin bütün çalarları ilə divarlara hopduğunu hiss edirsən. Uşaqlıq, gənclik illərindən xatirələr, General-mayor rütbəsinə qədər yüksəldiyi anlar, 1969-1982-ci illərdə respublikamıza rəhbərliyinin tarixi yaşamları Ulu Öndərin gərgin və məsuliyyətli bir ömür sürdüyünü göstərir. Azərbaycan iqtisadiyyatının, kənd təsərrüfatının yüksəlişi

uğrunda yorulmadan çalışan Heydər Əliyev öz ölkəsini güclü bir dövlətə çevirmək üçün əzmkarlıq nümayiş etdirmişdir.

Ekspozisiyanın I foto-stendi ümummilli liderin uşaqlıq və gənclik həyatına həsr olunub. ***«Adamların mənəvi aləmi təkcə əməkdə, ictimai fəaliyyətdə deyil, həmçinin ailədə formalaşır»*** - ulu öndərin bu fikirləri başlığı altındakı stenddə «Əliyevlər ailəsi. Naxçıvan 1930», «Heydər Əliyev. Naxçıvan 1930, 1938», «H.Əliyev Azərbaycan Sənaye İnstitutunun tələbəsidir. Bakı 1940», «Naxçıvan MSSR Nazirlər Sovetinin məsul əməkdaşı (1942), şöbə müdiri (1944)» fotoları əks olunub.

II stend ulu öndərin Milli Təhlükəsizlik orqanlarındakı fəaliyyətinə aiddir. 1944-cü ildən Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında xidmət etmiş, Leninqradda və Moskvada xüsusi təhsil almış, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1964-cü ildən Heydər Əliyev Azərbaycan SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Foto-stenddə unudulmaz dövlət xadiminin leytenant hərbi rütbəsindən general mayor rütbəsinə qədər keçdiyi yollar əks olunur.

1969-cu il iyul plenumunda H.Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. Onun 70-80-ci illərdəki çoxillik, məqsədyönlü və titanik fəaliyyəti nəticəsində Azərbaycan sənaye və kənd təsərrüfatının strukturu köklü dərəcədə dəyişmiş, bir çox yeni zavodlar, fabriklər, elektrostansiyalar tikilib istifadəyə verilmişdir.

III və IV stenddə dahi liderin Kür su kəmərinin (1970), Sərsəng SES-in (1975) tikintisində, Bakı, Gəncə və Neftçalada bir sıra kombinatların açılışındakı iştirakından yadigar qalan şəkillər əks olunur.

Heydər Əliyev Azərbaycan mədəniyyətinə yüksək qiymət

verən şəxsiyyət idi. Məhz Sovetlər Birliyi dönəmində bilavasitə onun təşəbbüsü ilə bir neçə elm və mədəniyyət xadimlərimiz İttifaqın ən yüksək ali ordenlərinə və fəxri adlarına layiq görülmüşlər. 1969-1982-ci illər ərzində Azərbaycanın bu günkü müstəqilliyinin əsasını təşkil edən siyasi, elmi, mədəni potensialı yaranmışdır. Bu illər ərzində Azərbaycanda 1155 kitabxana, 1316 klub, 849 məktəb, 44 muzey, 656 səhiyyə ocağı istifadəyə verilmişdir.

V tabloda dahi liderin İ.Nəsiminin heykəlinin (1982), C.Cabbarlının ev muzeyinin (1982), Şuşada Vaqifin məqbərəsinin (1982) açılışındakı xatirə şəkilləri nümayiş etdirilir.

Tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır – deyən Ulu Öndər 1982-ci ilin dekabrında Siyasi Büronun üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş, maşınqayırma və yüngül sənaye, nəqliyyat və rabitə, elm və səhiyyə, mədəniyyət və təhsil kimi çox mühüm sahələrə rəhbərlik etmişdir. Onun bu vəzifədə ən gərgin və səmərəli fəaliyyəti Baykal-Amur magistralının tikintisi ilə bağlıdır. Dövlət xadimi 1984-cü ildə bir memar olaraq tikinti işlərinə baxmağa getmiş və hətta 10 gün orada qalaraq öz dəyərli məsləhətlərini vermişdir.

VI-VII stendlər onun bu fəaliyyətini əks etdirir. 1987-ci ilin oktyabrında Sovet İttifaqı KP MK Siyasi Bürosunun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq Heydər Əliyev tutduğu vəzifədən istefa vermişdir.

Azadlıq və istiqlaliyyətin hər bir millətin milli sərvəti olduğunu qeyd edən Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıdışı ilə respublikamızın istehsal imkanlarının gücü ilə qısa zaman kəsiyində məhv olmuş iqtisadiyyatımızı dirçəltməyi qarşısına məqsəd qoydu. 1993-1998-ci illərdə Azərbaycanın əldə etdiyi bütün uğurlar və nailiyyətlər məhz Onun adı ilə

Heydər Əliyev muzeyinin gecə görüntüsü

Səməd Vurğun parkı

2007-ci ildə istifadəyə verilmişdir

2008-ci ildə istifadəyə verilmişdir

«Qara qızıl» sənaye müəssisəsi – «ANŞAD - Petrol» MM

Heydər Əliyev prospektindən görüntü

Yod-Brom zavodunun qurğusu

Neftçilər parkı – 2007-ci ildə istifadəyə verilmişdir.

bağlı olmuşdur. Azərbaycan Silahlı Qüvvələri üçün kadr hazırlığının təməlini hələ totalitar idarəetmə sisteminin hakim olduğu illərdə qoyan Heydər Əliyev C.Naxçıvanski adına Respublika Hərbi İnternat məktəbini yaratdı. Bu keçmiş Sovetlər Birliyi dönəmində böyük hadisə idi. Foto-stendin VIII, IX və X tablolarında dövlət xadiminin hərbi hissələrdə əsgərlərlə görüşü, Ali Hərbi Məktəbin ilk müdavimlərinin buraxılış mərasimi nümayiş etdirilir.

1994-cü il sentyabrın 20-də Bakıda «Gülüstan» sarayında Qərbin iri neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Ötən dövrdə Bakıda, Moskvada, Vaşinqtonda, Londonda, Parisdə xarici ölkələrin neft şirkətləri ilə bağlanmış çoxsaylı sazişlər Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. XI stenddə ümummilli liderin ilk neftin hasil olması münasibətilə «Çıraq - 1» platformasında (1997), Dübəndi terminalının açılış mərasimində (1998), üç dəniz əfsanəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlinin qoyulması mərasimində (2002) çəkilmiş fotolar əks etdirilir.

Xalqımızın mənəvi dəyərlərinə ehtiramla yanaşan dövlət başçısı dini bayram və mərasimlərin dövlət səviyyəsində qeyd olunması, tarixi və milli ənənələrimizin qorunub saxlanılması üçün mühüm tədbirlər görmüşdür. Bu dövrdə ölkədə onlarla məscid və digər ibadətgahlar tikilmiş, dini tədris müəssisələri, mədrəsə və ilahiyyat fakültələri açılmışdır.

XII və XIII stendlərdə dahi liderin mədəniyyət sahəsinə və bütövlükdə mənəvi dəyərlərə xidmətini əks etdirən tablolar yer alır.

Hakimiyyətdə olduğu 1969-1982-ci illərdə Heydər Əliyev Neftçala rayonuna tarixi səfər etmişdir. Bütün neftçalalıların ürək dolu xatirələri ilə yadda qalan 1979-cu ilin baharı rayonun

ictimai həyatında böyük dönüş yaratmışdır. Heydər Əliyev 1973-cü ildə Neftçala rayonunun yaranması haqqında qəbul etdiyi qərarın doğru olduğunu qeyd etməklə əmin olduğunu vurğulamışdır ki, rayonun əməkçiləri Azərbaycanın tərəqqisi uğrunda çalışacaq və vətəni yeni diqqətəlayiq müvəffəqiyyətlərlə sevindirəcəklər.

Ulu Öndərin rayon ictimaiyyəti və zəhmətkeşləri ilə 1979-cu ilin mayın 30-da görüşlərini əks etdirən XIV-XV stendlər də fotolarla zəngindir. Rayonda qarşılanma, Neftçala şəhəri ilə tanışlıq, Aşağı Qaramanlı kəndinin sakinləri ilə görüş, yeni Mədəniyyət evi və istirahət parkında görüşlər, rayonun Bankə qəsəbəsində balıq məhsulunun inkişaf etdirilməsi ilə bağlı mütəxəssislərlə söhbətlər nümayiş olunur.

23 avqust 2007-ci il. Ulu öndərin layiqli davamçısı, müasir siyasətçi, xalqımızın ümid çırağını yandıran İlham Əliyev tarixi səfərlə Neftçalada… Möhtərəm Prezidentimiz muzeyimizə maraqla baxdı. Mən ona məlumat verdim ki, böyük məhəbbətlə tikilib ərsəyə gətirilən muzey bir ekspozisiya zalından, 14 foto-stenddən və 10 vitrindən ibarətdir. Hər bir foto-stenddə ümummilli liderimizin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən 82 fotoşəkil, vitrinlərdə isə 45 kitab və 20 sənəd nümayiş olunur. Foto-stendlərin 8-i müstəqilliyimizdən öncəki, 6-sı isə müstəqillik dövrünə aiddir. Dövlətimizin başçısı ulu öndərin həyat və fəaliyyətini əks etdirən ekspozisiya ilə yaxından tanış oldu, ümummilli liderin rayonumuza 30 may 1979-cu il tarixi səfərini əks etdirən stendə xüsusi diqqət yetirdi. Məlumat verdim ki, muzeyimiz hələ gəncdir. Gələcəkdə muzeyə rayonun yaxın-uzaq kəndlərindən, qəsəbələrindən məktəblilər, ictimaiyyətin nümayəndələri gələcək və Heydər Əliyev irsi ilə yaxından tanış olacaqlar.

Muzeyin «Xatirə kitabı»na yazdığı ürək sözləri ilə Cənab

Prezident bizi xüsusilə şərəfləndirdi. Yazıda deyilir:

«Heydər Əliyev Muzeyi»ndə Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar böyük maraq doğurur. Bütün dövrlərdə Heydər Əliyev öz doğma xalqına sədaqətlə xidmət etmişdir. 70-80-ci illərdə Azərbaycanda güclü potensialın yaranmasında onun müstəsna rolu olmuşdur. Müstəqil Azərbaycanın Prezidenti kimi ölkəmizin hərtərəfli inkişafı və çiçəklənməsi üçün böyük işlər görmüşdür.

1979-cu ildə Heydər Əliyevin Neftçalaya səfərini əks etdirən fotoşəkillər onu göstərir ki, rayonun inkişafına böyük diqqət göstərilirdi.

Bu gün də, Neftçalanın inkişafı üçün lazımi tədbirlər görülür və əminəm ki, Neftçala Azərbaycanın ən qabaqcıl rayonlarından birinə çevriləcəkdir.

Bütün neftçalalılara xoşbəxtlik və uğurlar arzulayıram».

Dövlətimizin başçısı rayonumuza bir neçə saatlıq səfər etdi. Bu da tarix yaşadan növbəti səfər idi. Rayonun inkişafında gözəçarpan irəliləyişlər, atılan addımlar göz qabağındadır. **30 may 1979-cu ilin təkrar yaşantıları 23 avqust 2007-ci il tarixində…**

Anar Ağalarzadə
"Qoşa ulduz" jurnalı
sentyabr, 2007 № 06(09)

III Fəsil

UNUDULMAZ XATİRƏLƏR...

RƏHBƏRƏ MƏHƏBBƏTİN CAZİBƏSİ

Ləyaqət, cəsarət, qətiyyət, humanizm, Vətənə sevgi, milli tərəqqi və istiqlal naminə ömrünə, rahatlığına zərrəcə qıymayan insanlar zaman-zaman tarixin canlı mirvarisinə dönür və belə adamlarla müxtəsər görüş də, davamlı ünsiyyət də hər kəsin ömür salnaməsində qürur səhifəsi kimi yaşayır.

Şah İsmayılın ulu babasının uzaq-qədim əsrdə bizim yerlərə – Kürlə Xəzərin görüşdüyü məkana ova gəldiyini Ərdəbildə eşidəndə, bu xəbəri tarixin ən azı altı yüz il gecikmiş iftixar payı kimi fərəhlə qarşıladım. Şah İsmayılın məşhur sarayından çıxarkən haralı olduğumu bilən qoca ərdəbilli bu məlumatı ulu babasından eşitdiyini söylədi və bu xəbərdən indi də sonsuz qürur duyuram ki, möhtəşəm Səfəvilər səltənətinin canlı əlifbası hesab olunan əfsanəvi bir insanın – Şeyx Səfiəddinin mübarək qədəmləri bizim torpağa dəyibmiş. Bu öyünmə şəxsi təbiətimizə yad olan şöhrətpərəstlik deyil, halla-müqəddəs şöhrətə sevgidir. Axı, biz milləti ucaldan şöhrətdə ölməz əməllərin, vətən məcnunluğunun ətrini duymuşuq, duyuruq…

Bu sətirlərin müəllifi doğulub yaşadığı torpaqdan ömrü boyu çıxmayan əyalət ziyalısı kimi yurdunda qonaq olan işıqlı insanların gəlişini taleyin hədiyyəsi kimi qəlbində yaşatmaqdan zövq alır. 1921-ci ilin taxıl biçini vaxtında Neftçalaya – Xıllıya Nəriman Nərimanovun gəlişinin şahidi olub nitqini eşitmiş el

ağsaqqalının müdrik hekayətini lentə köçürməyi özünə borc bilən ziyalı üçün tarixin sonrakı qatlarında şəxsən görüşdüyü insanlarla təmaslarını da tarixləşdirməyi kim arzulamaz ki?.. Tale mənə gərgin, sıxıntılı ömürlə yanaşı, təsadüflə əlaqəsiz mənalı günlər qismət edib: Təkcə elm-sənət korifeyləri ilə deyil, dövlət xadimləri ilə Neftçalada görüşmək, söhbətləşmək qismәti! İndi ömrümün qürub çağında diqqətlə düşünürəm ki, zaman-zaman ulu sənətkarlarla yanaşı Mir Cəfər Bağırovu da, İmam Mustafayevi də, Vəli Axundovu da… Neftçalada qarşılayanlardan biri olmuşam və indi həmin görüşləri incə təfərrüatlarına qədər xatırlayır, sonrakı görüşlərlə müqayisə edirəm. Deyirlər ki, ömrün ötən illəri xatirələrin cənnətidir. Fəqət hər ötən gün, keçən il xatirələrin cənnəti sayılmaz – yaddaşlarda səadət məşəli kimi həmişə şəfəqlənən məqam-lardan başqa! Məhz bu mənada mən dahi Heydər Əliyevlə görüşlərimi xatirələr düzümünün cənnəti hesab edirəm. Universitetdəki təhsil illərinin də, sonrakı rəsmi görüşlərinin hər biri məndən ötrü idrak və ideal nümunəsi olub.

67 yaşlı Neftçalanın dünya şöhrətli qonaqları az olmayıb. Müxtəlif ölkələrdən gələn səyahlar, alimlər, yazıçılar, dövlət xadimləri, mütəxəssislər məhdud dairələrdə «iz qoyub» qayıtmışlar. Məhdudiyyət kəşfin anası olsa da, belə gəlişlərin kəşflə zərrəcə əlaqəsi olmadığından onlar haqqındakı xatirə də ikinci nəslə çatmamış yaddaşlarda əriyib, unudulub. Min illik tarixini yaşayan şifahi ədəbiyyatımızdan müdrik misranı xatırlayıram: «İl var bir günə dəyməz, gün var min aya dəyər». Bir günü min aya bərabər günlərdən birini də neftçalalılar 1979-cu il mayın 30-da yaşadı. Baharın oğlan çağında Neftçalaya əlahiddə bahar ovqatı ələndi – təkcə çöllərə, çəmənlərə, küçələrə, həyətlərə… deyil, həm də könüllərə, ümidlərə, arzulara… Azərbaycanın rəhbəri Heydər Əliyev

Neftçalaya qonaq gəlmişdi və yəqin ki, həmin görüşə tələsən on minlərlə insan selini görənlərin təsəvvüründə rayonumuzda bu qədər əhalinin yaşadığı möcüzəyə bənzəyirdi. Bəli, pərvanə şam işığına şığıyan kimi Neftçalanın insan dalğası da rəhbərini görməyə can atırdı. Bu məhəbbətin cazibəsi idi ki, Neftçalaya həmin gün hakim kəsilmişdi.

Haşiyə: Çox sonralar 1991-ci il mart ayının 18-də Yazıçılar İttifaqının qurultayında Heydər Əliyevlə görüşüb xeyli söhbətləşmək mənə nəsib oldu, həmin ilin fevralında ona göndərdiyim məktubla əlaqədar xeyli məmnun olduğunu bildirdi, təşəkkür etdi, Neftçalaya gəlişini xatırladı, camaatın vəziyyəti ilə maraqlandı, imkandan istifadə edib qürurla dedim ki, **…Heydər müəllim, onda bahar idi, indi qışın son günündə Neftçalaya gəlsəniz, əhalisi xeyli artmış rayon əhalisi kimsənin münasibətinə məhəl qoymadan Sizi əvvəlki sevgi ilə qarşılayacaq…**

O isə gülümsəyib ehmalca qolumdan tutub fikrimə xitam verdi:

- Mən buna tam əminəm. Mən xalqımın varlığı ilə nəfəs alıram, xalq isə onunla nəfəs alanları unutmur, qəlbində yaşadır. Mən vicdanıma və xalqıma arxalanıram. Vicdan isə qəlbin aynasıdır, güzgü ona baxanları aldatmadığı kimi, vicdan da məni heç vaxt aldatmayıb. Mənim vicdanım xalqımdır. Məndən neftçalalılara salam söylə…

… Bəli… 1979-cu il mayın 30-u Neftçala üçün xüsusi tarixə döndü. Həmin gün ərazimizi gəzdi, zəhmətkeşlərlə görüşdü, xahiş və tələblərini diqqətlə dinlədi, sonra da Mədəniyyət Sarayında proqram səviyyəli nitq söylədi. Bu adi nitq deyildi. Neftçala rayonu üçün təzə libasın hazırlanması üçün çəkilmiş dəqiq nəqşə idi. Nefti, kimyası, balıqçılığı, taxılı, pambığı, heyvandarlığı ilə səciyyələnən Neftçalanın təhsil, tibb, bağça

problemləri bu tarixi nitqdə əhatəli təhlilini və inkişaf istiqamətinin mükəmməl əksini tapdı. Həmin gün verdiyi konkret tapşırıq arzudan əmələ çevrildi: Yeni Neftçala – Xıllı asfalt yolu 3-4 ay ərzində istifadəyə verildi. Beləliklə, Neftçala – 26-lar qəsəbəsi Xıllı istiqaməti ilə Bakıya – cənuba, qərbə, şimala gedən maşın yolu 20 kilometr ixtisara düşdü.

Neftçalalıların bu dahi insana sahilsiz məhəbbətinin, minətdarlığının əlahiddə bir səbəbi də var: 1940-cı il fevral ayının 11-də yaradılmış Neftçala 1959-cu ilin dekabrında ləğv edilib Salyana qatıldı... və neftçalalıların darıxdırıcı günləri həmin gündən onqat artdı. Adi bir arayış almaq, maaş cədvəlinə imza etmək, arzusunu-şikayətini-mətləbini məmurlara çatdırmaq istəyən həmyerlilərim Salyana gedib-qayıtmaq üçün 110 kilometrdən artıq məsafəni qət etməli idilər. Çox vaxt da axtardığını tapmayan, mətləbi nəticəsiz qalan peşman həmyerlilərimlə qarşılaşanda, adamların ərzi-halından bixəbər məmurların əvəzinə əzab keçirdiyimi kimsə bilməzdi. Yurddaşlarımın 10 ildən artıq dözdüyü əzaba, etdiyi müraciətlərə məhəl qoyan olmadı... Zaman yetişdi, Heydər Əliyev hakimiyyətə gəldi, fəaliyyətinin ilk günündən xalqın həyat tərzinin qayğısına qalmağın hər kəs üçün ömür məramı olduğunu vəzifəlilər üçün vicdan borcu elan elədi. Biganələr işdən uzaqlaşdırıldı, xalqın taleyi və sərvəti ilə alver edənlər ciddi cəzalandırıldı, nəhayət 1959-cu ildən bəri haqqını tələb edən həmyerlilərimin hüququ bərpa edildi. Belə ki, 1973-cü ilin aprel ayında Neftçala rayonu yenidən yaradıldı və xatirimdədir ki, 6 il sonra görüşümüzə gələn Heydər Əliyev Mədəniyyət sarayının qarşısında maşından düşərkən pirani bir ağsaqqal onu qucaqlayıb dediyi sözlərdən özü də kövrəldi: **«Neftçalanı Sən yaratdın, ona ikinci həyatı Sən verdin, bizim əzizimiz. Övladının görüşünə xoş gəlmisən. Bu yaxşılıq üçün sağ ol!»**

Yadıma L.Tolstoyun sözləri düşdü: «Yaxşılıq hər şeyi məğlub edir, özü heç vaxt məğlub olmur». Heydər Əliyev yaxşılığa haqqı və təmənnası olanlara əbədi arxa olduğu üçün özü əbədi məğlubedilməzlik, xeyirxahlıq rəmzinə döndü…

İmamverdi Əbilov
Filologiya elmləri doktoru, professor,
Azərbaycanın əməkdar müəllimi

ŞƏRƏFLİ MİSSİYA – ALİ BAŞ KOMANDAN

Dahi rəhbərimiz Heydər Əliyevin Neftçala səfəri gənclik illərimizdə yaddaqalan tarix idi. Doğrudur Salyanda boya-başa çatsam da, lakin həmişə doğma yurdum hesab etdiyim Neftçalanın inkişafı hamı kimi bizləri də sevindirirdi. Çünki buranın zəhmətsevər insanlarının fəallığı nəticəsində Ulu öndər 1973-cü ildə Neftçalanın ayrıca rayon kimi yaranmasına qərar vermişdi. 1979-cu ildə onun rayona gəlişi həm də qonşu Salyanda da böyük maraq və sevinclə izlənilirdi.

Heydər Əliyevin vətəndaş kimi qətiyyəti nəinki zəhmətkeş insanları, hətta gənc nəsli də uğurlu yolun ardınca düşməyə sövq etmişdi. İstər Sovetlər Birliyi dönəmində, istərsə də müstəqillik illərində vətənpərvərlik ideyalarını sağlam şəkildə gənclərə çatdıran dahi rəhbərin məqsədlərinin xeyrini bu gün parlaq olaraq görürük. Hər bir gənc Vətənin müdafiəsi uğrunda əzmkarlıq göstərməkdən ötrü sərbəst şəkildə çağırış məntəqələrinə gəlir və xidməti borcunu layiqli şəkildə ödəməyə and içir. Doğma Neftçalamız da bu böyük işin uğurlarını yaşamaqdadır. Məhz ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısınqdakı müstəsna tarixi xidmətləri sırasında Milli

ordu quruculuğu prosesinin uğurla başa çatdırılmasıdır.

Fərəhləndirici haldır ki, bu tarixi misssiya bu gün Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük məsuliyyət və əzmkarlıqla həyata keçirilir. Bütün bu görülən işlər ölkəmizdə hərb sənətinin inkişafına dövlət başçısının diqqətlə yanaşmasının təzahürüdür. Çağırışçı hər bir gənc tərxis olunduqdan sonra cəmiyyətimizdə, həyatımızın bütün sahələrində ən önəmli proseslərdə fəal iştirak etməli, hərbi xidmət keçmiş şəxslərin təcrübəsindən, bilik və bacarığından geniş istifadə olunmalıdır. Şübhəsiz ki, Milli ordumuzun qüvvətlənməsi istiqamətində həyata keçirilən siyasət Prezident İlham Əliyevin hakimiyyətinin növbəti illərində uğurla davam etdiriləcəkdir.

Rza Rüstəmov
Neftçala Rayon Hərbi Komissarı
polkovnik leytenant

HEYDƏR ƏLİYEV ZƏHMƏTKEŞLƏRİN DAYAĞI İDİ

1979-cu ilin baharında Heydər Əliyevin rayonumuza səfəri bizim yaddaşlarımızda əbədiyaşar görüş kimi qalmışdır. Hər birimiz hallalıq və rahatlıqla yaşamağımıza görə o dahi şəxsiyyətə minnətdarıq. Heydər Əliyevin o gün Neftçalaya gəlişi torpağımıza bol ruzi-bərəkət, xeyir gətirdi. Xüsusilə kənd zəhmətkeşləri ilə ciddi maraqlanması onun işıqlı zəkasından xəbər verirdi. Çünki o özü də zəhmətkeş kəndli ailəsinin övladı idi. Rayonumuzun abadlaşdırılması, camaatın güzəranının yaxşılaşdırılması, pambıqçılığın və taxılçılığın inkişaf etdirilməsi üçün tapşırıqlar verərdi. Bütün bunlar biz zəhmətkeşləri işə daha da həvəsləndirirdi. Heydər Əliyev həm

əvəzedilməz rəhbər, həm də zəngin dünyagörüşə malik ağsaqqal kimi hər bir kəsin sonsuz sevgisini qazanmışdır. Bu yaxınlarda onun yenidən siyasi hakimiyyətə qayıdışı bizi hədsiz sevindirdi.

Heydər Əliyev şəxsiyyəti qərinələr, yüz illər keçsə də lakin yaddan çıxmayacaq. Həmişə millətimizin rifahını, inkişafını düşünmüş, hər bir kəsin firavan yaşamasına çalışmışdır. Zəhmətkeş, qurub-yaradan insanlar heç zaman onun diqqətindən qaçmamış, bu insanlar hər vaxt Onun qayğısını üzərlərində hiss etmişlər.

Ağaşirin Rəsulov, Məmmədsadıq Cəfərov
El ağsaqqalları, qabaqcıl neftçilər
01.08.1995-ci il

PARLAQ ZƏKA SAHİBİ

Mən ötən əsrin 70-80-ci illərində qabaqcıl kolxozçu olmuşam. Hər gün 100 kq-a yaxın pambıq yığırdım. Çalışdığım «1 May» kolxozunda Heydər Əliyevlə görüşəndə onun zəhmətkeşlərə, işə can yandıranlara qarşı necə də diqqətli olduğunu gördüm.

1979-cu ilin yazında Heydər Əliyevin Neftçalaya gəlişi yaddaşımızda əbədi iz qoydu. Camaatla görüşündə insanları diqqətli baxışları ilə bir-bir süzür, elə bil onların qəlbindən keçən fikirləri oxuyurdu. Heydər Əliyevlə üz-üzə duran hər bir kəs onun cəlbedici baxışlarının, səlis və məntiqli fikirlərinin sehrinə qərq olurdu. Üzündə heç bir yorğunluq hiss edilmir, adamları eşitməkdən, onlara kömək etməkdən ötrü sanki zövq alırdı. Biz insanları diqqətlə dinlədikdən sonra maddi çatışmazlıqlarımızın araşdırılıb tədbir görülməsi barədə

tapşırıq verirdi. Hər dəfə xatırladıqca o böyük insanın xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılmasında müstəsna xidmətlərinin sonsuz olduğunu hiss edirəm. Onun zahiri görkəmi elə bütün xüsusiyyətlərinin göstəricisi idi. Uca boylu, əzəmətli görünüşə malik bu insan özünü o qədər sadə aparırdı ki, biz kəndçilər onun yüksək vəzifəli qonaq olmasını belə hiss etmirdik. Heydər Əliyev mənim yaddaşımda beləcə qayğıkeş, insanpərvər və ən əsası böyük bir şəxsiyyət kimi qalıb.

Sürəyya Muxtarova,
əmək veteranı
25. 02. 1999-cu il

HEYDƏR ƏLİYEV YOLU HAQQ YOLUDUR

Heydər Əliyevin 1979-cu ilin mayında Neftçalaya səfəri həqiqətən də adını sərvətindən götürən Neftçala və neftçalalılar üçün unudulmaz xatirəyə çevrilmişdir. Biz neftçilər o dövrdə gərgin əməyimizlə hasil olan neftin ölkəmiz üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu anlayırdıq. Əlbəttə ki, bunun gerçəkləşməsi üçün rəhbər fikri, rəhbər ideyası başlıca amil idi. Bunun da öhdəsindən gələn məhz o böyük insan olmuşdur. «Qara qızıl»ımızın yalnız Sovetlər Birliyi çərçivəsində tanınması Heydər Əliyevi narahat etsə də, şükürlər olsun ki, müstəqillik illərində o neftimizin dünyaya tanıdılmasına nail oldu. Biz o zamanlar Azərbaycan neftçiləri kimi neft istehsalını artırmaq üçün səylə çalışırdıq. Son illərdə də qazanılan uğurları işimizin davamı kimi qiymətləndiririk.

Cənab Prezident İlham Əliyevi də rayonumuzda görməkdən məmnun olduq. Dövlət başçımızı qarşılayan minlərlə insanların sırasına qoşulmaqla ötən illəri xatırlayırdıq.

Düşünürdük ki, Heydər Əliyev ideyaları daima sadiqlik, inamlıq, paklıq təcəssümü kimi parlayır və xalqımızın rifahı naminə uğurlu addımlarla irəliləyir.

Teyyub Bağırov, Səxavət Sayılov
qabaqcıl neftçilər

UZAQGÖRƏN RƏHBƏR, LAYİQLİ VƏTƏNDAŞ

Heydər Əliyev 1979-cu il baharın oğlan çağında Neftçalada olarkən baş çəkdiyi sənaye müəssisələrindən biri də vaxtilə çalışdığımız Yod Brom zavodu olmuşdur. Xatırlayıram ki, o zavoda gələn zaman fəhlələrlə görüşündə birinci olaraq onların iş şəraiti, onlara göstərilən qayğıdan, aldıqları məvacibdən söhbət açdı. Zavodun həyətini gəzərkən sanki kövrək, lakin qəlbən sevindirici baxışlarıyla iri qurğulara diqqət yetirir, nə isə düşünürdü. Çünki gələcək iqtisadi inkişaf uğrunda çalışqanlığı hər zaman Ulu öndəri dərin düşüncələrə sövq edirdi. O günün xoş təəsüratları hələ də gözümüzün önündən getmir. Tarixi gün bizə nə qədər sevinc bəxş etmişdisə də 28 ildən sonra həmin anlar bu günki nəslimizə ərməğan oldu.

Sovetlər Birliyi dağılandan sonra zavodun işi də məhv oldu. Vaxtilə zavodun işini dayandırması yüzlərlə işçinin öz yerini itirməsinə, maddi çətinliyə səbəb olmuşdur. Lakin bu gün cənab Prezident İlham Əliyev iqtisadiyyatımıza yeni nəfəs gətirdi. İndi zavod fəaliyyətə başlayıb və kimyaçıların, əməkçilərin daimi iş yerləri var. Bütün bunların qarşısında hamımız ona daima borcluyuq.

Qurban Ağayev
əməkçi

ATA YOLUNUN DAVAMI

Xatirimdədir, ulu öndər Heydər Əliyevin 1979-cu ilin yazında rayonumuza gəlişi böyük əks-səda doğurmuşdu. O zamanlar mən Bankə Balıqartırma Kombinatında əməkçi kimi çalışırdım. Rəhbər gəlişi hamımızı qəlbən sevindirmişdi. O, Kombinatımıza gəlib əməkçilərin iş şəraiti ilə maraqlandı. Qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi üçün daha da əzmlə çalışmağın lazım olduğunu söylədi və heç də görülən işlərdən tam arxayınçılığa qapılmağın olmayacağı haqda rəhbərliyə göstərişlər verdi. Bu onun uzaqgörənliyindən, xalqa layiqli xidmətindən irəli gəlirdi. Rayonumuzun tanınmış əməkçi və ağsaqqallarından olmuş Həşim Bəşirov və Əliabbas Piriyevin də Heydər Əliyev barəsində söylədikləri xatirələrimizi daha zənginləşdirmişdir. Bax, indi bu xatirələri sizinlə bölüşürəm…

2003-cü ildə Prezidentimiz İlham Əliyevin də rayonumuza səfərini «Ata yolu»nun davamı kimi qiymətləndirmək olar. Çoxdandır təqaüddə olsam da indi Xıllı nərə balıqartırma zavodu kimi fəaliyyətdə olan müəssisənin açılışına gələn İlham Əliyevi zavodun təntənəli işəsalma mərasimində görmək həqiqətən şərəfli idi. Onun açılış mərasimindəki tarixi nitqi hələ də qulaqlarımızda səslənir. Əməkçilərlə səmimi görüşünü canlı bir tarixin ardı hesab etmək olardı. Eynilə Heydər Əliyevin Neftçala səfəri kimi…

Hüseyn Əliyev
əməkçi

**ALQIŞ RƏHBƏRİMƏ,
PREZİDENTİMƏ**

Günəş tək nur saçdı fikrin, amalın,
Dahi Heydər zəkasından güc aldın.
Qadir yaşatmağa müdrik kamalın,
Keçdin sınaqlardan, dağ tək ucaldın.

*** **** ****

Xalqın seçdi səni özünə rəhbər,
Sevgi-məhəbbətlə, ümid, inamla.
Vətənə gərəkdir, layiqli öndər,
Dedilər sabaha gedək İlhamla!

*** *** ***

Sevinclə yazıram sözü, kəlməni,
Saf ülvi arzular hakim qəlbimə: -
Qoy Tanrı qorusun, yaşatsın Səni,
Alqış rəhbərimə, Prezidentimə.

Rafael Ərəstunoğlu
«Məmməd Araz» və «Qızıl qələm»
mükafatı laureatı

Kitabdakı foto və yazı materiallarının toplanmasında göstərdikləri köməkliyə görə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Foto-xronika şöbəsinin, Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTac), Azərbaycan Milli Elmlər Akademiyasının «Azərbaycan dövlətçiliyi və Heydər Əliyev kitabxanası»nın, Azərbaycan Dövlət Arxiv İdarəsinin, eləcə də ADAİ-nin Neftçala rayon Arxiv şöbəsinin, Neftçala rayon Tarix-Diyarşünaslıq muzeyinin, Neftçala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS), «Gündoğar» qəzeti redaksiyasının rəhbərlərinə təşəkkürümüzü bildiririk.

İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR:

1. Talıbov V. Qayıdış (1990-1993). Bakı, 1996.
2. Шукуров И. Дипломатия мира. Баку, 1997.
3. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002.
4. Əsgəroğlu İ., İbrahimov A. Zəmanəmizin böyük Azərbaycanlısı. Bakı, 2002.
5. Salmanov A., Xankişiyev İ. Yeni əsrdə yeni lider. Bakı, 2002.
6. Mirələmov H. Həqiqət. Bakı, 2003.
7. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, 2003.
8. Valeh Mirzə. Azərbaycan dövlətçiliyinin qoşa qanadı. Bakı, 2003.
9. Səmədov A. Böyük siyasətin təntənəsi. Bakı, 2004.
10. Azərbaycan Prezidenti. Bakı, 2004.
11. Yusifov M. Milli lider və müstəqil dövlətçilik. Bakı, 2005.
12. Əbilov H.İ. Dünənin… sabahın… çağdaş dahisi (sənədli esse). Bakı, 2007.
13. Nurlu İ.G. Heydər Əmanəti Neftçala. Bakı, 2007.
14. Əbilov H.İ. Zamanla vaxt arasında. Bakı, 2004.
15. «Oktyabr bayrağı» qəzeti. Cümə axşamı, 31 may 1979-cu il, №63 (880)
16. «Oktyabr bayrağı» qəzeti. Çərşənbə axşamı, 05 iyun 1979-cu il, №65 (882).
17. «Kommunist» qəzeti. 01 iyun 1979-cu il, №123 (17 162).
18. «Вышка» qəzeti. Cümə, 01 iyun 1979-cu il, №123 (14 789).
19. «Бакинский рабочий» qəzeti. 01 iyun 1979-cu il, №123 (18 555).

20. «Kommunist» qəzeti. Çərşənbə, 27 iyun 1979-cu il, №145 (17 184).
21. «Xalq qəzeti». Cümə, 24 avqust 207-ci il. №188 (25 658).
22. «Elm» qəzeti. Cümə, 24 avqust 2007-ci il, №25-26 (832-833).
23. «Respublika» qəzeti. Cümə, 24 avqust 2007-ci il, №188 (3028).
24. «Azərbaycan» qəzeti. Cümə, 24 avqust 2007-ci il, №188 (4704).
25. «Xalq qəzeti». Cümə axşamı, 30 avqust 2007-ci il, №193 (25 663).
26. «Xalq qəzeti». Cümə, 31 avqust 2007-ci il, №194 (25 664).
27. «Gündoğar» qəzeti. 01 sentyabr 2007-ci il, №17-18 (6300).
28. «Respublika» qəzeti. Şənbə, 15 sentyabr 2007-ci il, №207 (3077).
29. «Azərbaycan» qəzeti. Cümə, 28 sentyabr 2007-ci il, №218 (4734).
30. «Gündoğar» qəzeti. 17 oktyabr 2007-ci il, №21-22 (6304).
31. «Qoşa ulduz» ictimai-siyasi beynəlxalq jurnal. Sentyabr 2007-ci il, №06 (09).
32. «Xalq qəzeti». Çərşənbə axşamı, 06 noyabr 2007-ci il, №249 (25 719).

KİTABIN İÇİNDƏKİLƏR:

Ön söz 3

Tarixin yaddaqalan səhifələri 7

I Fəsil

1979-cu ilin baharı. Heydər Əliyev Neftçalada 11

Partiya irəli səsləyir 12

Neftçalada səmimi görüşlər 14

Müvəffəqiyyətləri möhkəmləndirməli,
yeni zirvələr fəth etməli 36

II Fəsil

23 avqust 2007-ci il.

İlham Əliyevin Neftçalaya səfəri 45

Təntənəli qarşılanma 45

Azərbaycan Prezidenti İlham Əliyevin Neftçala rayonuna səfəri – Heydər Əliyev muzeyinin açılış mərasimi 49

Dünyada ən sürətli inkişaf edən iqtisadiyyat məhz Azərbaycandadır 55

«Xalq Bank»ın Neftçala filialı ilə tanışlıq 60

Heydər Əliyev Fondu Neftçala şəhər internat məktəbini əsaslı təmir etdirəcəkdir 61

Azərbaycan yod istehsalına görə, dünyada dördüncü yerdə olacaqdır 61

Uşaqların intellektual cəhətdən hərtərəfli inkişafı üçün hər cür şərait yaradılmışdır 64

Neftçala şəhər 2 nömrəli orta məktəbi ilə tanışlıq 81

Neftçala rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 83

Neftçala: qəlblərdə ümman döyünür 88

Neftçaladakı «Heydər Əliyev muzeyi» tarix yaşadır ..94

III Fəsil

Unudulmaz xatirələr

Rəhbərə məhəbbətin cazibəsi.....104

Şərəfli missiya – Ali Baş Komandan 108

Heydər Əliyev zəhmətkeşlərin dayağı idi.....109

Parlaq zəka sahibi 110

Heydər Əliyev yolu haqq yoludur 111

Uzaqgörən rəhbər, layiqli vətəndaş 112

Ata yolunun davamı 113

Alqış rəhbərimə, Prezidentimə! 114

İstifadə edilmiş mənbələr 116

ƏBƏDİLƏŞƏN GÖRÜŞLƏR
Bakı - Təknur - 2008

Mətbəənin direktoru: Ələkbər Məmmədov
Çap sexinin müdiri: Elşən Cəbrayılov
Kompüter dizaynı: Rza Səttarov

Yığılmağa verilmişdir: 15.12.2007
Çapa imzalanmışdır: 01.05.2008
Kağız formatı: 60x84 1/16
H/h həcmi: 7.5 Tiraj:500

"Təknur" MMC-nin mətbəəsində çap edilmişdir
Ünvan: H.Cavid 31